# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

24 dekabr 2025-ci il, çərşənbə
№ 235 (7062)
Qiyməti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Azərbaycanın GÜCÜ!



Bax səh. 3

## Burada həyat yenidən qurulur!

**İlham Əliyev: 1991-ci il dekabrın sonunda Ermənistan dövləti sizi öz dədə-baba torpağınızdan didərgin salmışdı. Dekabrın sonu idi və indi 2025-ci il dekabrın sonunda ədalət burada da, bu torpaqda da tam bərqərar olur**

Bax səh. 2

## Azərbaycan-Türkiyə regional iqtisadi gücə çevrilir

Bax səh. 4

## Milli Məclis Prezident İlham Əliyevə təbrik məktubu göndərib



Bax səh. 4

## 100 minlərlə ailə sevinəcək

Bax səh. 5

## Sankt-Peterburqda sülh və Zəngəzur dəhlizi (TRIPP) mesajı...

Bax səh. 6

## Azərbaycan və CAREC ölkələri üçün yeni fürsət

Bax səh. 6

## Milli təhlükəsizlik üçün...



Bax səh. 7

## “Qətnamə”, yoxsa siyasi təzyiq aləti: ikili standartlar davam edir



Bax səh. 5

# Prezidenti təbrik edirlər...

Azərbaycan Prezidenti İlham Əliyevin ad günü münasibətilə dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri, tanınmış ictimai - siyasi xadimlər təbrik məktubu ünvanlayıb. Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev, ICESCO-nun Baş direktoru Səlim bin Məhəmməd əl-Malik, Gürcüstanın Baş naziri İrakli Kobaxidze, Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev, Müstəqil Dövlətlər Birliyinin Baş katibi Sergey Lebedev, "Ukrayna Azərbaycanlıları Alimlər Şurası" İctimai Təşkilatının rəhbəri Arif Quliyev, İrlandiyada fəaliyyət göstərən "Əşrəf və Anna" musiqi məktəbinin direktoru Əşrəf Tağıyev, İtaliyada fəaliyyət göstərən Napoli-Bakı Assosiasiyasının sədri Cuzeppe Kanilia, Rusiya Federasiyası İnquşetiya Respublikasının birinci Prezidenti, Sovet İttifaqı Qəhrəmanı Ruslan Auşev, Rusiya Federasiyası Dağıstan Respublikasının rəhbəri Sergey Məlikov, Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinin qubernatoru Aleksandr Beqlov, Ankara-Bakı Tanıtma və Həmrəylik Dərnəyinin sədri Səttar Kaya, Maksim Tank adına Belarus Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Dili və Mədəniyyəti Mərkəzinin rəhbəri Fuad İbrahimov, Rusiyanın Şimali Osetiya-Alaniya Respublikasında Azərbaycanlılar Konqresinin fəxri prezidenti Şahin Məmmədov və Konqresin sədri Murtuz Gülməmmədov, Kanadanın Saskaçevan əyalətində fəaliyyət göstərən Azərbaycan Birliyinin rəhbəri Ruhid Mirzəyev, Kanadada fəaliyyət göstərən Recayna Azərbaycan Mədəniyyət Assosiasiyası, Rusiya Federasiyası Təhlükəsizlik Şurası sədrinin müavini Dmitri Medvedev, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri, Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının sədri Ədalət Turan, Yaponiyada fəaliyyət göstərən Yerli İcmaların Dirçəliş Fondunun sədri Tetsuo Sato, Almaniya-Azərbaycan Radioloji və Neyroradioloji Cəmiyyətinin sədri Nuran Abdullayev, İstanbul Azərbaycan Dostluq Dərnəyinin sədri Xuraman Ağayeva, Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru İqor Babuşkin, Rusiya Federasiyasının senatoru İlyas Umaxanov, Avropa Azərbaycanlıları Konqresinin fəxri prezidenti Natiq Ağamirov, Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer, Rusiyanın "VTB Bank" Publik Səhmdar Cəmiyyətinin prezidenti, İdarə Heyətinin sədri Andrey Kostin, BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Cio Kristofoli və başqaları Azərbaycan Prezidentini təbrik edib, gələcək fəaliyyətində uğurlar diləyiblər.

# Tehrandan zəng

Dekabrın 23-də İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, İran Prezidenti dövlətimizin başçısını qarşıdan gələn ad günü münasibətilə təbrik edib, ona prezidentlik fəaliyyətində yeni uğurlar və cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Məsud Pezeşkian ölkəmizə səfərlərini və dövlətimizin başçısı ilə apardığı müzakirələri məmnunluqla xatırlayıb.



Telefon söhbət zamanı 2026-cı ildə təmaslar və Azərbaycan-İran dostluq əlaqələrinin gələcək inkişafına dair fikir mübadiləsi aparılıb.

# Burada həyat yenidən qurulur!

## İlham Əliyev: 1991-ci il dekabrın sonunda Ermənistan dövləti sizi öz dədə-baba torpağınızdan didərgin salmışdı. Dekabrın sonu idi və indi 2025-ci il dekabrın sonunda ədalət burada da, bu torpaqda da tam bərqərar olur
















## Xankəndidə...

**Kərkicahan qəsəbəsi abadlaşır**

Prezident İlham Əliyev dekabrın 23-də Xankəndi şəhərinin Kərkicahan qəsəbəsində olub.

AZƏRTAC xəbər verir ki, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov dövlətimizin başçısına qəsəbədə görülmüş işlər barədə məlumat verdi.

Təmir işlərinə bu ilin may ayında başlanılmış qəsəbədə hazırda 33 yaşayış binası və 1037 fərdi ev mövcuddur. Onlardan 247-si yararsız, 790-ı isə qismən yararlıdır. Bu ilin sonunadək 40, 2026-cı ildə isə 280 evin təmiri nəzərdə tutulur. Artıq 30 evdə təmir işləri başa çatdırılıb. İlkin mərhələdə 30 ailə olmaqla, ümumilikdə 115 sakin müvəqqəti məskunlaşdıqları şəhər və rayonlardan qəsəbəyə - öz dədə-baba yurdlarına qayıdıb.

Qəsəbədə bir sıra sosial infrastruktur layihələri də icra olunub. Fərdi evlərin yerləşdiyi ərazidə su, elektrik və qaz xətləri yoxlanılıb, 2 kilometr yeraltı optik kabel, 510 metr elektrik xətti çəkilib, işıq dirəkləri quraşdırılıb, küçə işıqlandırılması təmin olunub, daxili yollar asfaltlanıb. Eyni zamanda, 60 çarpayılıq 1 nömrəli körpələr evi-uşaq bağçası və 624 şagird yerlik tam orta məktəbdə əsaslı təmir işləri aparılıb.

Qeyd edək ki, Prezident İlham Əliyev 2023-cü il oktyabrın 15-də bu qəsəbədə olub.

Dəniz səviyyəsindən 1130 metr hündürlükdə yerləşən və ümumi sahəsi 234 hektar olan Kərkicahan Xankəndi şəhər ərazi vahidində qəsəbədir. 1960-cı illərdə keçmiş vilayətin millətçi erməni rəhbər orqanları qəsəbənin adını yaşayış məntəqələrinin rəsmi siyahısından çıxarıb Xankəndi şəhərinə birləşdirmişdilər. 1991-ci ilin sonunda işğal olunan Kərkicahan 1992-ci ildə ermənilər tərəfindən yandırılmışdı. İşğaldan əvvəl qəsəbədə 355 ailə olmaqla 1796 nəfər azərbaycanlı yaşayırdı. Hazırda qeydiyyatda 674 ailə olmaqla, ümumilikdə 2531 sakin var. Qəsəbə 2023-cü ildə Azərbaycan Ordusunun həyata keçirdiyi antiterror əməliyyatı nəticəsində işğaldan azad edilib.

Sonra dövlətimizin başçısı Xankəndi şəhəri Kərkicahan qəsəbə sakini Yadigar Əsədovanın evində oldu.

**Kərkicahan qəsəbəsində sakinlərlə görüş...**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Xankəndi şəhərinin Kərkicahan qəsəbəsində buraya köçən sakinlərlə görüşüb.

Doğma torpağa 34 ildən sonra qayıdışınız münasibətilə sakinləri təbrik edən dövlətimizin başçısıqeyd edib ki, qayıdış prosesi davam edir: ""Böyük Qayıdış" Proqramı bu gün dünya miqyasında ən uğurla icra edilən qayıdış proqramıdır. Siz isə uzun illər çətin şəraitdə, həm fiziki, həm mənəvi əzablar içində yaşamısınız. Artıq buna son qoyuldu və 34 ildən sonra doğma Kərkicahana qayıdırsınız. Böyük xoşbəxtlikdir, həm sizin üçün, həm də xalqımız üçün.

1991-ci il dekabrın sonunda Ermənistan dövləti sizi öz dədə-baba torpağınızdan didərgin salmışdı. Dekabrın sonu idi və indi 2025-ci il dekabrın sonunda ədalət burada da, bu torpaqda da tam bərqərar olur. Əlbəttə, təsəvvür etmək çətin deyil ki, bu illər ərzində necə əzab-əziyyət içində yaşamısınız. Həm ev şəraiti, həm mənəvi əzab, ədalətsizlik hissi. Amma əminəm, siz də bütün xalqımız kimi inanırdınız ki, gün gələcək və biz buraya qayıdacağıq. İki il bundan əvvəl antiterror əməliyyatı nəticəsində Kərkicahan qəsəbəsi Xankəndi şəhəri ilə birlikdə işğalçılardan azad edilmişdir və artıq burada həyat yenidən qurulur".

Oktyabr ayında bu qəsəbəyə gəldiyini xatırladan Prezident İlham Əliyev burada evlərin, məktəbin təmir olunması, eləcə də digər lazımi infrastruktur layihələri icra edilməsi ilə bağlı tapşırıq verdiyini və bu gün qəsəbədə göstərişlərinin yüksək səviyyədə təşkil olunduğunu söyləyib: "Bu, qəsəbənin, bərpasının birinci mərhələsidir. Çünki işğal dövründə düşmən buranı da yararsız vəziyyətə salmışdı. Evlərin bir çoxunda heç yaşamaq mümkün deyil. Ona görə təqribən iki ilə yaxın təmir-bərpa işləri aparılıbdır. İndi isə artıq qəsəbənin bəzi küçələri tam abadlaşdırılıb, evlər tam hazır vəziyyətə gətirilib və burada yaşamaq üçün bütün şərait var.

Sizi bu hadisə münasibətilə bir daha ürəkdən təbrik etmək istəyirəm. Əminəm ki, burada rahat və firavan yaşayacaqsınız. Əsas odur ki, öz doğma torpağınızdasınız".

"Əfsuslar olsun ki, o vaxt Azərbaycan rəhbərliyi sizi qoruya bilmədi, iradə göstərə bilmədi, qorxaqlıq göstərdi və faktiki olaraq işğalla barışmalı oldu. Ondan sonra gələn hakimiyyət vəziyyəti daha da bərbad vəziyyətə salmışdı. Faktiki olaraq Şuşanın, Laçının işğalı Kərkicahanın işğalından təqribən beş ay sonra baş verdi. Ona qədər Xocalı soyqırımı törədildi. O vaxt həm sovet dövründən qalan rəhbərlik, həm də ki, guya xalq hərəkatına aid olan rəhbərlik faktiki olaraq burada yaşayan insanları taleyin ümidinə buraxmışdı. Sizi müdafiə edə bilərdilər, etmədilər. Bəziləri qorxaqlıqdan, bəziləri isə hakimiyyətə gəlmək üçün Azərbaycanda xaos, anarxiya yaratmaq məqsədilə bir çox hallarda xəyanət edərək torpaqlarımızı düşmənə təhvil vermişdi. Ondan sonra hakimiyyətə gələn AXC-Müsavat cütlüyü yarıtmaz və xəyanətkar fəaliyyəti ilə ölkəmizi dərin böhrana salmışdı. Vətəndaş müharibəsi, Kəlbəcərin işğalı və faktiki olaraq Laçın-Xankəndi yolunun itirilməsi - bütün bunlar Ermənistan üçün böyük üstünlük təmin etdi və nəticədə işğala, böyük işğala yol açdı. Biz isə gecə-gündüz öz əzəli torpaqlarımızı düşmənin tapdağından qurtarmaq üçün çalışmışıq, vuruşmuşuq, müharibədə Qələbə qazanmışıq. Düzdür, İkinci Qarabağ müharibəsi zamanı işğala tam son qoymasaq da, heç vaxt şübhə etmirdik ki, tezliklə Xankəndi, Xocavənd, Ağdərə, Əsgəran, Kərkicahan və o vaxt hələ işğal altında olan bütün digər qəsəbə və şəhərlər azad olunacaq. İki il bundan əvvəl cəmi bir neçə saat davam edən antiterror əməliyyatı nəticəsində işğala tam son qoyduq, suverenliyimizi bərpa etdik, işğalçıları torpaqlarımızdan əbədi qovduq və bu gün sülh içində yaşayırıq. Bu elə bir şərəfli tarixdir ki, əminəm, bugünkü nəsil, bundan sonrakı nəsillər bu şərəfli tarixlə əbədi olaraq fəxr edəcəklər" - deyən dövlətimizin başçısı işğal dövründə sakinlərin harada yaşaması ilə maraqlanıb və vurğulayıb ki, onların buraya qayıtması bir daha göstərir ki, ədalət var, sadəcə olaraq, onu təmin etmək lazımdır.

**Kərkicahan qəsəbə 1 nömrəli tam orta məktəbin binası istifadəyə verilib**

Prezident İlham Əliyev dekabrın 23-də Xankəndi şəhərinin Kərkicahan qəsəbə 1 nömrəli tam orta məktəbin binasının əsaslı təmirdən sonra açılışında iştirak edib.

Elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına görülmüş işlər barədə məlumat verdi.

Bildirildi ki, 624 şagird yerlik məktəbin binasında əsaslı təmir işləri yüksək səviyyədə və qısa müddətdə həyata keçirilib. Burada ümumilikdə 17 sinif otağı, laboratoriyalar, STEAM, informatika, hərbi hazırlıq, biologiya, kimya, fizika, texnologiya, dərnək, məktəbəqədər hazırlıq otaqları, kitabxana, oxu, idman və akt zalları, yeməkxana müəllim və şagirdlərin ixtiyarına veriləcək. Binadakı otaqların hamısı zəruri tədris vəsaiti ilə təchiz edilib. Bundan başqa, məktəbin həyətyanı sahəsində açıq idman meydançası da yaradılıb. Bir sözlə, burada təlim-tədrisin yüksək səviyyədə həyata keçirilməsi üçün hərtərəfli imkanlar mövcuddur.

**Qarabağ Universitetinin Mühəndislik fakültəsinin binasının təməli qoyulub**

Prezident İlham Əliyev dekabrın 23-də Xankəndi şəhərində Qarabağ Universitetinin Mühəndislik fakültəsinin binasının təməlini qoyub.

Dövlətimizin başçısına binada yaradılacaq şərait barədə məlumat verildi.

Qeyd edək ki, Qarabağ Universitetinin Mühəndislik fakültəsi müasir texnoloji çağırışlara cavab verən, innovasiya və tətbiqyönümlü mühəndis kadrların hazırlanmasını hədəfləyən əsas akademik struktur bölmələrdən biridir. Fakültədə hazırda 19 professor-müəllim, inzibati və texniki heyət üzvü fəaliyyət göstərir. Burada ümumilikdə 314 tələbə təhsil alır.

Fakültədə bakalavriat səviyyəsində elektrik və elektronika, inşaat, mexatronika və robototexnika, logistika və nəqliyyat texnologiyaları, kompüter mühəndisliyi, data analitika və riyaziyyat daxil olmaqla 7 ixtisas üzrə kadr hazırlığı həyata keçirilir. Gələcəkdə mühəndislik istiqaməti üzrə yeni ixtisasların açılması nəzərdə tutulur.

**Qarabağ Universitetinin Biznes və iqtisadiyyat fakültəsinin binasının açılışında...**

Prezident İlham Əliyev dekabrın 23-də Xankəndi şəhərində Qarabağ Universitetinin Biznes və iqtisadiyyat fakültəsinin yeni inşa olunmuş binasının açılışında iştirak edib.

Dövlətimizin başçısına binada yaradılmış şərait barədə məlumat verildi.

Bildirildi ki, Qarabağ Universitetinin Biznes və iqtisadiyyat fakültəsi müasir akademik mühitin formalaşdırılması istiqamətində ardıcıl şəkildə inkişaf edən əsas struktur bölmələrdən biridir. Fakültədə hazırda 20 professor-müəllim, inzibati və texniki heyət üzvü fəaliyyət göstərir. Burada ümumilikdə 505 tələbə bakalavriat səviyyəsində 7 ixtisas - iqtisadiyyat, maliyyə, mühasibat uçotu, menecment, dövlət və bələdiyyə idarəetməsi, beynəlxalq ticarət və logistika, turizm işinin təşkili üzrə təhsil alır.

Tədris binasında 40 auditoriya, kompüter laboratoriyaları, kitabxana, oxu və akt zalları, iclas, inzibati və professor-müəllim otaqları mövcuddur.

Biznes və iqtisadiyyat fakültəsinin yeni tədris binasının istifadəyə verilməsi universitetdə müasir kampusun formalaşdırılması istiqamətində atılan mühüm addımlardan biri olmaqla yanaşı, Qarabağda və Şərqi Zəngəzurda yüksəksəviyyəli ali təhsil ekosisteminin qurulmasına əhəmiyyətli töhfədir.

Qeyd edək ki, Prezident İlham Əliyev 2024-2025-ci illər ərzində Qarabağ Universitetində görülən işlərlə tanış olub, universitetin, tələbə yataqxanasının, Klinika binasının, Tibb və sağlamlıq elmləri fakültəsinin tədris korpusunun açılış mərasimlərində də iştirak edib.

Hazırda Qarabağ Universitetində 27 ixtisas üzrə 6 fakültədə 2154 tələbə təhsil alır.

**"Xankəndi-1" elektrik yarımstansiyası istismara verilib**

Prezident İlham Əliyev dekabrın 23-də Xankəndi şəhərində "AzərEnerji" ASC-nin 110/35/10 kV-luq "Xankəndi-1" elektrik yarımstansiyasının açılışında iştirak edib.

"AzərEnerji" ASC-nin İdarə Heyətinin sədri Baba Rzayev dövlətimizin başçısına həyata keçirilmiş işlər barədə məlumat verdi.

Qeyd edək ki, Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərin dayanıqlı elektrik enerjisi təchizatı infrastrukturunun yaradılması ilə bağlı tapşırıqlarına əsasən, Xankəndi şəhərində müasir şəhər şəbəkəsi modelinə uyğun 110/35/10 kilovoltluq qapalı tipli yarımstansiya tikilib. Xankəndi və ətraf ərazilərin ölkə enerjisisteminə qoşulması üçün Şuşa şəhərindən Xankəndiyə çətin dağlıq və meşəlik relyefdən keçməklə 1,8 kilometri yeraltı kabel olan, ümumilikdə 11 kilometrlik yüksəkgərginlikli ötürmə xətti çəkilib. Bu yarımstansiya işğaldan azad edilmiş ərazilərdə 110 kV-luq gərginlik sinfi üzrə tikilmiş ilk qapalı tipli yarımstansiyadır. Burada bütün avadanlıq və qurğular, o cümlədən transformatorlar binanın daxilində yerləşdirilib.

Bildirilib ki, yarımstansiyada ən müasir mikroprosessor tipli Rəqəmsal İdarəetmə Mərkəzi qurulub. Bu Micro-SCADA sistemi "AzərEnerji" ASC-nin mütəxəssisləri tərəfindən yaradılaraq ilk dəfə məhz Xankəndidə tətbiq olunub. Sistem yüksəkgərginlikli elektrik xətlərinin və avadanlıqların real vaxtda monitorinqi, idarə olunması və hadisələrin izlənməsini təmin edir. Yarımstansiyadan Xankəndi şəhəri, Ağdərə, Xocalı və Xocavənd rayonları etibarlı və dayanıqlı elektrik enerjisi alacaq.

Prezident İlham Əliyevə "AzərEnerji" ASC tərəfindən "Yaşıl enerjiyə keçid" meqalayihələri barədə də məlumat verildi. Qeyd edildi ki, ölkənin ən böyük yarımstansiyası - 500 kV-luq "Nəvahi" yarımstansiyasında işlər tamamlanıb, "Şəfəq" Günəş Elektrik Stansiyasının enerjisistemə qoşulması və Səngəçal terminalının elektrikləşdirilməsi üçün Cəbrayılda 330, Səngəçalda isə 220 kV-luq yarımstansiyaların tikintisi yekunlaşıb. Azərbaycanda bərpaolunan enerji mənbələrinin dinamik inkişafı üçün Batareya Enerji Saxlanc sistemlərinin yaradılması sürətlə davam edir. MDB məkanında gücünə və tutumuna görə ən böyük Batareya Saxlanc sistemləri olan bu enerji obyektləri "Abşeron" və "Ağdaş" yarımstansiyalarının ərazilərində qurulur. Ölkədə yeni yaradılan 2 QVt bərpaolunan enerji mənbələrinin şəbəkəyə inteqrasiyasını asanlaşdırmaq və enerji sisteminin dayanıqlılığını gücləndirmək məqsədilə Geniş Ərazi Monitorinq və Geniş Ərazi İdarəetmə sistemləri tətbiq edilir.

## Xocalıda...

**Ballıca kəndində ofis mebelləri və mebel aksesuarlarının istehsalı müəssisəsi açılışında...**

Prezident İlham Əliyev dekabrın 23-də Xocalı rayonunun Ballıca kəndində "Accurate Az" MMC-nin ofis mebelləri və mebel aksesuarlarının istehsalı müəssisəsinin açılışında iştirak edib.

İqtisadiyyat naziri Mikayıl Cabbarov və "Accurate Az" MMC-nin təsisçisi İlkin Abuşov dövlətimizin başçısına müəssisənin fəaliyyəti barədə məlumat verdilər.

Bildirildi ki, müəssisə Türkiyə, İsveçrə, Almaniya, İtaliya, Çin və Yaponiyanın qabaqcıl texnologiya və avadanlıqları ilə təchiz olunub. Burada ildə 20 çeşiddə 240 min ədəd ofis mebeli və 4 milyon ədəd mebel aksesuarı istehsal ediləcək. Məhsulların 60 faizi ixraca, 40 faizi daxili bazara yönəldiləcək. Xammaldan hazır məhsula qədər ofis mebeli istehsalının bütün mərhələləri müəssisədə həyata keçiriləcək. Layihənin ümumi dəyəri 20 milyon manat təşkil edir ki, bunun reallaşdırılması üçün İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 7 milyon manat güzəştli kredit verilib. Müəssisə, həmçinin işğaldan azad edilmiş ərazilərdə sahibkarlar üçün tətbiq olunan güzəşt və stimullardan yararlanıb.

Müəssisənin fəaliyyətə başlaması Qarabağda mebel istehsalı sahəsinin formalaşmasına, yerli istehsalın genişlənməsi və ixrac potensialının artırılmasına, həmçinin işğaldan azad olunmuş ərazilərdə əhalinin məşğulluq səviyyəsinin yüksəlməsinə töhfə verəcək. Hazırda burada 80 nəfər üçün daimi iş yeri yaradılıb, növbəti mərhələlərdə isə 450 daimi iş yerinin yaradılması planlaşdırılır.

## Ağdamda...

**Ağdam Sənaye Parkında "Saloğlu Qarabağ" MMC-nin istehsal müəssisəsinin təməli qoyulub**

Prezident İlham Əliyev dekabrın 23-də Ağdam Sənaye Parkında "Saloğlu Qarabağ" MMC-nin istehsal müəssisəsinin təməlini qoyub.

"Saloğlu Qarabağ" MMC-nin təsisçisi Tacəddin Mustafayev dövlətimizin başçısına yeni yaradılacaq müəssisə haqqında məlumat verdi.

Bildirildi ki, müəssisə Ağdam Sənaye Parkında 1 hektar ərazidə yaradılacaq. Burada mebel, o cümlədən müxtəlif çeşiddə qonaq və yataq otağı dəstləri, yumşaq və metal mebel aksesuarlarının istehsalı üzrə zavodun qurulması nəzərdə tutulur. İstehsal prosesində Türkiyə, Almaniya və Çin texnologiyalarından istifadə olunacaq. Zavodun istehsal gücü illik 4 min dəst mebel və 6 min ədəd metal mebel aksesuarı olacaq. Məhsullar daxili bazarın tələbatını ödəməklə yanaşı, ixrac da ediləcək. İnvestisiya dəyəri 8 milyon manat olan müəssisənin qurulmasına İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən güzəştli kredit ayrılması nəzərdə tutulub. Müəssisə sənaye parkının rezidentlərinə verilən bütün vergi və gömrük güzəştlərindən yararlanacaq. Burada 50 nəfərlik daimi iş yerinin yaradılması planlaşdırılır.

**Metal elektrik dirəklərinin istehsalı müəssisəsinin açılışında...**

Prezident İlham Əliyev dekabrın 23-də Ağdam Sənaye Parkında "Construction" MMC-nin metal elektrik dirəklərinin istehsalı müəssisəsinin açılışında iştirak edib.

"Construction" MMC-nin təsisçisi Nurlan Abbasov dövlətimizin başçısına müəssisənin fəaliyyəti barədə məlumat verdi.

Bildirildi ki, Sənaye Parkının 1 hektarlıq ərazisində yerləşən müəssisədə istehsal Çin texnologiyası əsasında qurulub. Zavodun metal elektrik dirəkləri üzrə illik istehsal gücü 7 min 200 ton təşkil edir. Məhsullar həm daxili bazarın tələbatını ödəyəcək, həm də ixrac ediləcək. İnvestisiya həcmi 2,96 milyon manat olan müəssisədə 32 daimi iş yeri yaradılıb. Qurulmasına İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 1,2 milyon manat zəmanətli kredit ayrılıb. Bununla yanaşı, müəssisə sənaye parkının rezidentlərinə verilən bütün vergi və gömrük güzəştlərindən yararlanıb. Həmçinin texnika, texnoloji avadanlıq və qurğuların idxalı zamanı təxminən 443 min manat dəyərində ƏDV və gömrük rüsumlarına güzəşt əldə olunub.

**"Hilton Garden Inn Agdam" hoteli istifadəyə verilib**

Prezident İlham Əliyev dekabrın 23-də Ağdam şəhərində "Hilton Garden Inn Agdam" hotelinin açılışında iştirak edib.

Dövlətimizin başçısına burada yaradılmış şərait barədə məlumat verildi.

Bildirildi ki, ümumi ərazisi 2 hektardan çox olan mehmanxana 2, 6 və 7 mərtəbəli olmaqla, 3 blokdan ibarətdir. 287 yerlik hotel binasında müxtəlif siniflərə aid ümumilikdə 127 otaq var. Burada, həmçinin restoran, ictimai-iaşə zonası, iclas, tədbir və ziyafət zalları, qapalı hovuz, idman zalı yaradılıb. Hotelin ərazisində də geniş abadlıq işləri görülüb. Burada 120 nəfər daimi işlə təmin olunub. Yeni hotel Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksi, Ağdam Muğam Mərkəzi, Ağdam Sənaye Parkı və digər sosial infrastruktur obyektlərinin yaxınlığında yerləşir.

# Azərbaycanın GÜCÜ!



Bu gün müstəqil Azərbaycan zirvələrdədir, xalqımız öz tarixinin ən qüdrətli dönəmini yaşayır. Ölkə nümunəvi inkişaf modelinə malikdir. Respublikamız xarici siyasətdə də ardıcıl uğurlara imza atır. Dünyada Azərbaycana böyük hörmət bəslənilir, bayrağımız ən mötəbər beynəlxalq təşkilatların önündə əzəmətlə dalğalanır, dost dövlətlərin sayı getdikcə artır.

Bəs Azərbaycanı güclü edən nədir? Sualın cavabı birmənalıdır: Lider amili. Hazırda Prezident İlham Əliyev Azərbaycanın yenilməz gücünü simvolizə edir və belə bir qənaət reallıqdan qaynaqlanır. Xalqımızın xoşbəxtliyi ondadır ki, Azərbaycana müstəqilliyimizin fundamental əsaslarını formalaşdıran Ulu Öndər Heydər Əliyevin siyasi kursunun varisliyini yüksək səviyyədə təmin edən İlham Əliyev rəhbərlik edir.

Müasir dövrün lideri kimi xarakterizə edilən Prezident İlham Əliyevin uğur formulunun düsturu dörd mühüm amillə səciyyələnir: Vaxtı düzgün seçmək, avantüraya getməmək, ölkəni risk altına salmamaq, mümkün dərəcədə maksimum uğura nail olmaq. Məhz dövlət siyasətində bu uğur formuluna əməl edilməsinin nəticəsidir ki, hazırda Azərbaycan güclü dövlət imici qazanıb və bütün istiqamətlərdə nailiyyətlər qazanır.

## Lider ətrafında milli gücün konsolidasiyası

Dünya tarixindən liderlərin ölkələrin, xalqların taleyində müstəsna rol oynadıqlarına aid çoxlu sayda nümunələr gətirmək mümkündür. Bizim tariximizdə böyük siyasətçi Heydər Əliyev Azərbaycanın güclü iqtisadi, siyasi və ideoloji əsaslarını yaradan Lider kimi əbədi qalacaq. Son 22 ildə isə Azərbaycan cəmiyyəti böyük məmnuniyyətlə Prezident İlham Əliyevin liderliyini qəbul edir. Bu gün Azərbaycan ona görə güclü dövlətdir ki, onun İlham Əliyev kimi Lideri var. İlham Əliyev isə ona görə fateh Liderdir ki, Onun arxasında yenilməz güc - xalq var.

Təkcə son dövrlərdə dünyada yaşanan bir sıra kataklizmlər milli dövlətlər üçün çox ağır sınaqlar olub. O cümlədən bəzi dövlətlər müharibələrin, iqtisadi böhranların, pandemiyanın gətirdiyi çətinliklərə dözə bilməyiblər və bir sıra hallarda xarici güclərdən, beynəlxalq maliyyə qurumlarından asılı vəziyyətə düşüblər. Azərbaycan bu kimi fəsadlardan yan ötən dövlətdir. Bunun təməlində dayanan əsas amil isə Prezident İlham Əliyevin "Biz birlikdə güclüyük" prinsipinə əsaslanmaqla həyata keçirdiyi siyasətdir.

Bu gün ölkə daxilində aparılan çoxvektorlu siyasətdə cəmiyyətin bütün sosial təbəqələrinin mənafeyi diqqət mərkəzində saxlanılır. Heç kəs dövlət qayğısından kənarda qalmır. Ölkədə ədalətli resurs bölgüsü təmin edilir, dövlətin imkanları artdıqca sosial məqsədlərə yönələn tədbirlərin əhatə dairəsi də genişləndirilir.

Eyni zamanda, ölkədə yaşayan bütün xalqların mənafeyi qorunur, onların tarixi-mədəni irsinə böyük hörmətlə yanaşılır. Azərbaycan dünyada azsaylı ölkələrdəndir ki, burada millidini fərqlilik ayrıcı xətlər yaratmır. Bütün xalqlar tariximizdən gələn tolerantlıq ənənələrinə uyğun olaraq çiyin-çiyinə ölkənin inkişafına töhfələrini verirlər. Bütün bunlar İlham Əliyev fenomeni ilə bilavasitə bağlıdır. O, həm bütün sosial qruplar, həm də Azərbaycanda yaşayan xalqlar üçün bir həmrəylik simvoludur.

İlham Əliyevin həyata keçirdiyi siyasət sayəsində Azərbaycan elə bir yüksək inkişaf səviyyəsinə çatıb ki, ümummilli məsələlərdə hətta siyasi partiyalar da həmrəylik mövqeyindən çıxış edirlər. Son illərdə siyasi partiyalar tərəfindən imzalanan bəyanatlar və müraciətlər bunun təsdiqidir.

## İqtisadi müstəqillik üzərində möhkəmlənən siyasi müstəqillik

Ötən 22 ildə dövlətimizin başçısının qətiyyətli siyasi iradəsi ilə geniş əhatə dairəsinə malik olan islahatlar reallaşdırılıb, ölkədə iqtisadi inkişaf üçün bütün şərtlər təmin edilib. Bütün bunların nəticəsində də milli iqtisadiyyatımız dinamik şəkildə inşişaf edib. Bəhs olunan dövrdə Azərbaycan iqtisadiyyatı nominal ifadədə 14,8 dəfə böyüyərək əsas iqtisadi göstərici olan ÜDM-in həcmi 134 milyard manata çatıb. Dövlət büdcəsinin gəlir və xərcləri 32 dəfə artaraq 1,2 milyard manatdan 39,9 milyard manata yüksəlib. Xarici valyuta ehtiyatları 48 dəfədən çox artaraq 73 milyard dollara çatıb. Azərbaycanın xarici ticarət əlaqələri qurduğu ölkələrin sayı 124-dən 188-dək və ya 51,6 faiz artıb və xarici ticarət dövriyyəsi 5,2 milyard dollardan 56 milyard dollara yüksəlib.

Azərbaycan hazırda Cənubi Qafqaz iqtisadiyyatının lokomotividir. Bu regionda Azərbaycan ÜDM-in həcminə görə, liderdir. Ölkəmizdə ÜDM 72,5 milyard dollar, Ermənistanda 16,2 milyard dollar, Gürcüstanda isə 19,3 milyard dollar təşkil edir. Cənubi Qafqaz iqtisadiyyatının ümumi həcmi 108 milyard dollar təşkil edir ki, onun 65 faizindən çoxu Azərbaycanın payına düşür.

Cənubi Qafqaz iqtisadiyyatına yatırılmış cəmi investisiyaların həcmi 400 milyard dollardır, onun 310 milyard dolları Azrbaycana yönəldilib. Yəni xarici investorlar Cənubi Qafqazda kapital qoyuluşlarının 80 faizdən çoxunu Azərbaycana etibar edib.

Eyni zamanda, iqtisadi müstəqilliyin təmin edilməsi ölkəmizin milli maraqlar əsasında tam müstəqil siyasi kurs həyata keçirməsinə zəmin yaradıb. Bu gün Azərbaycan heç bir güc mərkəzindən asılı deyil, heç kim ölkəmizlə diktə dili ilə danışa bilməz və danışmır da.

## Əsas ümummilli ideyanı reallaşdıran Müzəffər Lider

Ötən üç onillik ərzində ölkənin ərazi bütövlüyünün və suverenliyinin təmin olunması xalqımızın əsas ümummilli ideyasını təşkil edib. Prezident İlham Əliyevin 2003-cü ildə verdiyi əsas vədlərdən biri də məhz bununla bağlı idi. Son prezident seçkilərindən sonra Milli Məclisdə baş tutan andiçmə mərasimində söylədiyi nitqində həmin vədini xatırladan dövlətimizin başçısı deyib: "Verdiyim vədlər arasında təbii ki, ilk növbədə, ölkəmizin ərazi bütövlüyünün bərpası idi. O vaxt və ondan sonrakı illərdə, o cümlədən 2018-ci ildə bax bu kürsüdən andiçmə mərasimində demişdim ki, Ermənistan-Azərbaycan münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır, heç vaxt Azərbaycan xalqı öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək və nəyin bahasına olursa-olsun biz öz doğma torpaqlarımızı azad edəcəyik. O gündən cəmi 2 il yarım keçdi və Azərbaycan xalqı bir yumruq kimi birləşərək Vətən müharibəsi nəticəsində torpaqlarımızın böyük hissəsini azad etmişdir, 300-dən çox şəhər və kənd azad olunmuşdur, o cümlədən bizim mədəniyyət paytaxtımız Şuşa şəhəri işğalçılardan azad edilmişdir. Biz qan tökərək, şəhidlər verərək tarixi ədaləti bərpa etdik".

Vətən müharibəsindən sonra Azərbaycan 2023-cü il sentyabrın 19-20-də təxminən 23 saat davam edən uğurlu antiterror tədbirləri həyata keçirərək Qarabağda özünün suverenliyini tam təmin etdi. Bununla da Qarabağda separatçı rejimin mövcudluğuna son qoyuldu.

Həm 44 günlük Vətən müharibəsində, həm də 23 saatlıq antiterror tədbirlərində qazanılan qələbələr son 22 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan siyasətin məntiqi nəticələridir. Prezident İlham Əliyev ötən dövrdəki fəaliyyətində ölkənin ərazi bütövlüyünün və suverenliyinin təmin olunmasını Azərbaycanın gündəliyinin mərkəzində saxladı. Güclü iqtisadi inkişaf, ökənin maliyyə imkanlarının artması qarşıda duran bütün vəzifələri icra etməyə qadir olan müasir Ordu qurmağa imkan verdi. Azərbaycan ərazi bütövlüyünü və suverenliyini məhz hərbi-siyasi yolla təmin etdi. İlham Əliyev tarixdə ölkənin ərazi bütövlüyünü və suverenliyini tam təmin edən Müzəffər Lider kimi qalacaq!

***Mübariz FEYİZLİ***



# Milli Məclis Prezident İlham Əliyevə təbrik məktubu göndərib

## Parlamentin iclasında 11 məsələ müzakirə olunub

*Nardar BAYRAMLI*

Dekabrın 23-də Milli Məclisin növbəti iclası keçirilib. İclasın gündəliyinə 11 məsələ daxil edilib.

Əvvəlcə çıxış edən spiker Sahibə Qafarova dekabrın 24-nün Prezident İlham Əliyevin doğum günü olduğunu bildirib. O qeyd edib ki, Prezident İlham Əliyev fəaliyyətinin miqyasına və əhəmiyyətinə görə milli tariximizdə müstəsna yeri olan siyasi və dövlət xadimidir: "Eyni zamanda, o, dünya siyasətinin ən tanınmış və nüfuzlu şəxsiyyətlərindən biridir. Müasir Azərbaycanın dinamik iqtisadiyyata malik olan, regional və qlobal proseslərdə önəmli rol oynayan bir dövlət kimi inkişaf etməsi Prezident İlham Əliyevin uzaqgörən daxili və xarici siyasəti ilə bağlıdır. Məhz onun fenomenal liderlik məharəti, strateji baxışı, əzmi və cəsarəti sayəsində Azərbaycan sabitlik və quruculuq məkanına çevrilib, dövlətimiz keyfiyyətcə yeni səviyyəyə yüksəlib. Son 22 ildə Prezidentin rəhbərliyi ilə həyata keçirilən strateji xətt Ulu Öndər Heydər Əliyevin siyasi kursunu yeni dövrün şəraitinə və qlobal transformasiyaların tələblərinə uyğunlaşdırmağa imkan verib. Cənab İlham Əliyevin dövlət maraqlarımızın qorunmasında prinsipial, qətiyyətli və ardıcıl fəaliyyəti Azərbaycanı beynəlxalq birliyin önəmli bir üzvünə çevirib".

S.Qafarovanın fikrincə, Prezident İlham Əliyevin tarixi xidmətlərindən biri də dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunmasıdır. Onun rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində və antiterror əməliyyatında əldə edilən tarixi qələbələr sayəsində Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyulması ölkəmizin inkişafında yeni mərhələ açıb. Spikerin sözlərinə görə, dövlət başçısının sülh diplomatiyasının təntənəsi olan Vaşinqton razılaşmaları milli maraqlarımızın təmin edilməsi yolunda növbəti böyük uğur olub. ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə əldə edilən bu razılaşmalar bizim ölkəmiz və bütün Cənubi Qafqaz regionu qarşısında sülh, sabitlik və əməkdaşlığı təcəssüm etdirən yeni üfüqlər açıb.

"Ölkəmizin xoşbəxt gələcəyi cənab İlham Əliyevin əzmlə davam etdirdiyi quruculuq və inkişaf strategiyası ilə bağlıdır. Əminliklə söyləmək olar ki, Prezidentin rəhbərliyi ilə Azərbaycan qarşıdakı illərdə yeni nailiyyətlərə imza atacaq, dünyanın sayılıb-seçilən dövlətləri sırasında öz yerini daha da möhkəmləndirəcək",-deyən parlamentin sədri doğum günü münasibəti ilə Prezident İlham Əliyevə Milli Məclis adından təbrik məktubu göndərilməsini təklif edib. Deputatlar bu təklifi alqışlarla qarşılayıblar.

İclasda əvvəlcə "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında 2017-ci il 31 oktyabr tarixli Sazişə Əlavə Protokol"un təsdiq edilməsi barədə qanun layihəsi qəbul olunub. Sonra millət vəkilləri "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında peşə təhsili sahəsində əməkdaşlığa dair 2021-ci il 19 fevral tarixli Protokola Əlavə Protokol"u təsdiq ediblər.

Layihəyə əsasən, Azərbaycan və Türkiyə hökumətləri arasında təhsil sahəsində əməkdaşlıq üzrə mövcud hüquqi baza çərçivəsində, 2021-ci il 19 fevral tarixində Ankara şəhərində imzalanmış "Peşə təhsili sahəsində əməkdaşlığa dair Protokol"a Əlavə Protokolun Əlavəsi kimi "Türkiyə-Azərbaycan peşə təhsili müəssisələrinin Nümunəvi Nizamnaməsi" hazırlanıb. Qeyd olunan Protokol Azərbaycan və Türkiyə arasında peşə təhsili sahəsində əməkdaşlığın genişləndirilməsi, birgə peşə təhsili müəssisələrinin yaradılması və fəaliyyətinin təşkili üçün hüquqi əsasları müəyyən edir. Hazırkı Nümunəvi Nizamnamə isə həmin Protokolun icrası məqsədilə qəbul edilən törəmə hüquqi sənəd olmaqla, Protokol çərçivəsində yaradılacaq peşə təhsili müəssisələrinin fəaliyyətinin təşkilinə dair vahid model hüquqi çərçivəni müəyyən edir.

Nümunəvi Nizamnamə Türkiyə-Azərbaycan peşə təhsili müəssisələrinin hüquqi statusunu, fəaliyyət istiqamətlərini, idarəetmə mexanizmlərini, tədris prosesinin təşkili prinsiplərini və qarşılıqlı əməkdaşlıq əsaslarını ümumi formada tənzimləyir. Bu sənəd hər bir konkret peşə təhsili müəssisəsi üzrə ayrıca nizamnamələrin hazırlanması, razılaşdırılması və dövlət qeydiyyatına alınması üçün əsas kimi nəzərdə tutulur.

İclasda, həmçinin "Azərbaycan Respublikası Hökuməti ilə Oman Sultanlığı Hökuməti arasında diplomatik, xüsusi və xidməti pasport sahiblərinin vizadan qarşılıqlı azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsi qəbul olunub. Saziş 2025-ci il oktyabrın 29-da Məsqət şəhərində imzalanıb. Sənədə əsasən Azərbaycan ilə Oman Sultanlığı arasında diplomatik, xüsusi və xidməti pasport sahibləri vizadan qarşılıqlı azad edilir.

Sonra "Ümumi təhsil haqqında" Qanunda dəyişiklik üçüncü oxunuşda qəbul olunub. layihəsinə əsasən, "Ümumi təhsil haqqında" Qanuna yeni məzmunda 27.4-cü maddə əlavə ediləcək. Həmin maddədə bildirilir ki, dövlət ümumi təhsil müəssisələrinə müəllimlərin işə qəbulu və yerdəyişməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurumun müəyyənləşdirdiyi qaydada müsabiqə yolu ilə həyata keçirilir. Müəllimlərin işə qəbulu ilə bağlı müsabiqədə iştirak (ilk dəfə müsabiqədə iştirak edənlər, əlilliyi olan şəxslər, ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvləri, şəhid ailəsinin üzvləri və Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə "Müharibə veteranı" adı almış şəxslər istisna olmaqla) ödənişlidir. Müəllimlərin işə qəbulu ilə bağlı müsabiqədə iştirak üçün ödənişin məbləği müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi qurum tərəfindən müəyyən olunur.

Millət vəkilləri "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini də üçüncü oxunuşda qəbul ediblər. Dəyişikliklər Enerji Effektivliyi İnformasiya Sisteminin yaradılması və məlumatların bu sistemə daxil edilməsi ilə bağlıdır. Bu məqsədlə qanuna "Enerji effektivliyi informasiya sistemi" adlı 4-1-ci maddə əlavə olunur, "Enerji auditi" adlanan 6-cı maddənin 6.3-cü bəndi genişləndirilir, eyni zamanda, 17-ci maddəyə də 17.1.5-ci bənd artırılır.

Yaradılması nəzərdə tutulan Enerji Effektivliyi İnformasiya Sistemi enerji səmərəliliyi sahəsində dövlət siyasətinin icrasına nəzarəti həyata keçirməyə, müvafiq sahədə elektron xidmətləri göstərməyə və icra göstəricilərini operativ almağa kömək edəcək. Belə ki, sistem üzərindən enerji auditorunun ixtisas attestatının alınması məqsədilə müraciətlər qəbul ediləcək, sistemdə enerji auditorları və enerji auditi təşkilatlarının reyestri əks olunacaq, enerji istehsalı, təchizatı və istehlakına nəzarət subyektləri hesabatlarını yerləşdiriləcək. İnformasiya sisteminin ictimaiyyətə açıq hissəsində əhali üçün enerji səmərəliliyinə dair maarifləndirici məlumatların, enerjiyə qənaət kalkulyatorunun, enerji istehlakına dair statistikanın və sair yerləşdirilməsi nəzərdə tutulub. Yeni sistemin yaradılması bu sahədə şəffaflığın artırılmasına, dövlət xidmətlərinin səmərəliliyinin yüksəlməsinə xidmət edəcək.

Qeyd edək ki, iclasın gündəliyində olan digər qanun layihələri də qəbul olunub.

# Azərbaycan-Türkiyə regional iqtisadi gücə çevrilir

## İqtisadi-ticari-investisiya əməkdaşlığının yeni hədəfləri nəzərdəm keçirilib

Bakıda Azərbaycan və Türkiyə arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 12-ci iclası keçirilib. İclasda çıxış edən Baş nazir Əli Əsədov qardaş ölkələr arasında dərin tarixi və mədəni köklər üzərində qurulmuş möhkəm münasibətlərin siyasi, iqtisadi, humanitar sahələrdə birgə misilsiz uğurlara gətirib çıxardığını vurğulayıb. Bildirilib ki, 4 il əvvəl imzalanmış Şuşa Bəyannaməsi ikitərəfli münasibətləri müttəfiqliyin ən yüksək zirvəsinə qaldırıb. Dövlət başçıları arasında mövcud olan şəxsi münasibətlər isə sıx təmasların ən yaxşı göstəricisidir, təkcə bu il prezidentlər arasında 7 qarşılıqlı səfərin baş tutması da bunu təsdiqləyir. Hər iki ölkə, eyni zamanda, Türk dünyasının birliyi və TDT-nin beynəlxalq aləmdə nüfuzunun artırılması üçün əzmkar fəaliyyət göstərir.

İqtisadi-ticari sahədə ikitərəfli əlaqələrə toxunularaq Türkiyənin Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri olduğu qeyd edilib. Bildirilib ki, hər iki ölkənin mövcud iqtisadi potensialı və coğrafi üstünlükləri ticarət dövriyyəsinin həcmini daha yüksək səviyyəyə qaldırmaq üçün real imkanların mövcud olduğunu göstərir.

Türkiyənin vitse-prezidenti Cevdet Yılmaz isə qeyd edib ki, Birgə Hökumətlərarası Komissiya iqtisadi və ticari təşviqlərlər yanaşı, investisiyaların artırılması, gömrük rejiminin asanlaşması, yeni enerji və nəqliyyat layihələri, eləcə də təhsil, səhiyyə və digər genişspektrli proqramların icrası üçün əməkdaşlığın dərinləşdirilməsinə töhfə verir. Hazırda həm Hökumətlərarası Komissiyanın, həm də Türkiyə-Azərbaycan Biznes Şurasının koordinasiyası ilə qarşılıqlı fəaliyyət sxemi üzrə əlaqələrin genişləndirilməsi, hədəf sektorlar üzrə ticarət nümayəndə heyətlərinin təşkili, sərgilərdə qarşılıqlı iştirakın artırılması və KOB-ların bazara daha sürətli çıxışına imkan verən mexanizmlər üzərində iş qurulmaqdadır. Məqsəd dövlət və özəl şirkətlərin bir-biri ilə daha yaxından işbirliyini təmin etmək, sürətlə real ticarət və investisiya əlaqələrinin çevik şəbəkəsini formalaşdırmaqdır.

### Azad Ticarət Sazişinin imzalanması nəzərdə tutulur

Komissiyanın iclasında çıxış edən Türkiyənin ticarət naziri Ömər Bolat bildirib ki, Türkiyə-Azərbaycan əlaqələri tarixin ən yaxşı dövrünə daxil olub. Siyasi və diplomatiya sahəsində möhkəm strateji müttəfiqlik iqtisadiyyatın bütün sektorlarında, eləcə də humanitar və mədəni sahələrdə də ən yüksək zirvəyə çatmasını təmin edib. İki qardaş dövlət arasında son 10 ildə ticarət dövriyyəsinin dəyəri 3 dəfədən çox artaraq 2,4 milyard dollardan 8 milyard dollaradək yüksəlib. Türkiyə Azərbaycanın ixracında ikinci, Azərbaycanın idxalında isə üçüncü yerdədir. Bu kontekstdə 2024-cü ildə əhatə dairəsi genişləndirilərək qüvvəyə minən Türkiyə-Azərbaycan Preferensial Ticarət Sazişi ikitərəfli ticarət əlaqələrinə ciddi impuls verməkdədir. Hədəf qarşılıqlı ticarətin ümumi ticarət dövriyyələrində birinci yerə yüksəlməsinə nail olmaq, mübadiləni 15 milyard dollara çatdırmaqdır. Bu baxımdan bütün ikitərəfli iqtisadi fəaliyyətlər məhz bu strateji hədəfə uyğun şəkildə planlaşdırılır. Növbəti mərhələdə isə əsas hədəf Azərbaycanla Azad Ticarət Sazişinin imzalanması və ticarət münasibətlərinin tam liberallaşdırılmasıdır.

### SOCAR 19 milyard dollar sərmayə ilə Türkiyədə ən böyük investordur

İki qardaş ölkənin dövlət və biznes təmsilçilərinin iştirakı ilə Bakıda II Azərbaycan-Türkiyə İnvestisiya Forumu da keçirilib. İkinci dəfədir ki, təşkil olunan Forum hökumət və biznes dairələri arasında açıq və səmərəli dialoqun qurulması, yeni layihələrin müzakirəsi və işgüzar əlaqələrin genişləndirilməsi üçün mühüm platforma rolunu oynayır. Tədbirdə çıxış edən Baş nazir Əli Əsədov bildirib ki, Forum Azərbaycan və Türkiyə arasında iqtisadi tərəfdaşlığın yeni mərhələyə yüksəlməsinə, qarşılıqlı investisiyaların artmasına və birgə uğurlu layihələrin reallaşmasına mühüm töhfə verir.

Baş nazir vurğulayıb ki, Azərbaycan ilə Türkiyə arasında sənaye və texnologiya sahələrində də əməkdaşlıq son illərdə keyfiyyətcə yeni mərhələyə yüksəlib. Qarşılıqlı təcrübə mübadiləsi, insan kapitalının inkişafı və müasir texnologiyaların tətbiqi üzrə atılan addımlar sənaye potensialımızın gücləndirilməsinə xidmət edir. Bu çərçivədə istehsal sahələrində, xüsusilə metal emalı, maşınqayırma və digər baza sənaye istiqamətlərində qabaqcıl texnologiyaların tətbiqi üzrə bilik və bacarıqların ötürülməsi həyata keçirilir. SOCAR Türkiyəyə 19 milyard dollar sərmayə qoymaqla qardaş ölkənin ən böyük xarici investorudur və yeni sərmayələr planlaşdırır.









### Zəngəzur dəhlizi regional inteqrasiyanı gücləndirəcək

İki ölkə arasında qarşılıqlı sərmayələri təşviq edən Türk İnvestisiya Fondunun yaradılması isə ortaq maliyyə xəzinəsi hesab edilir. Fond region daxilində birgə investisiya təşəbbüslərinin dəstəklənməsi və maliyyə alətlərinin genişləndirilməsi baxımından strateji əhəmiyyət daşıyır, yeni investisiya planları icra etməyə hazırlaşır.

Forumda çıxışı edən Türkiyənin vitse-prezidenti Cevdet Yılmaz bildirib ki, Azərbaycan regionda və qlobal miqyasda mühüm rol oynayır və inkişafı təmin edən mühüm layihələrin təşəbbüskarıdır, eyni zamanda regionda reallaşan ən nəhəng layihələrdə Türkiyənin ən yaxın tərəfdaşıdır. O, vurğulayıb ki, Rusiya-Ukrayna müharibəsindən sonra Orta Dəhlizin strateji əhəmiyyəti daha da yüksəlib və bu marşrutun əsas komponentlərindən biri Azərbaycandır. Zəngəzur dəhlizinin açılması Orta Dəhlizin beynəlxalq nəqliyyat-logistika marşrutu kimi rəqabət gücünü əhəmiyyətli dərəcədə artıracaq, Cənubi Qafqazda sabitlik və rifah üçün yeni imkanlar yaradacaq, eləcə də Orta Asiya, türk dövlətləri, Türkiyə və Avropa arasında inteqrasiyanı gücləndirəcək.

### Azərbaycandan Türkiyəyə qeyri-neft ixracı artıb

İqtisadiyyat nazirinin müavini Səməd Bəşirli Azərbaycan və Türkiyə arasında iqtisadi münasibətlərin inkişaf edərək ən yüksək səviyyəyə çatdığını vurğulayıb. Qeyd edilib ki, son 6 il ərzində Azərbaycanın qeyri-neft ixracı iki dəfə artıb və bu, Azərbaycanın beynəlxalq bazarlarda rəqabət qabiliyyətinin yüksəlməsinə səbəb olub. Həmin ixracda Türkiyənin də payı əhəmiyyətli dərəcədə artıb. Hazırda iki qardaş ölkənin dövlət və biznes sektorunun qarşılıqlı təşəbbüsləri və fəal iştirakı ilə "yaşıl enerji", kənd təsərrüfatı, sənaye, nəqliyyat, logistika, rəqəmsallaşma və turizm kimi sahələrdə birgə layihələr həyata keçirilir. Əldə olunan nəticələr ticarət və investisiya əməkdaşlığının daha da genişləndirilməsi, yeni ortaq layihələrin reallaşdırılması və uzunmüddətli iqtisadi tərəfdaşlığın inkişafı üçün geniş potensialın mövcud olduğunu göstərir.

S.Bəşirli bildirib ki, Azərbaycanın artan nəqliyyat-tranzit imkanları, təşəbbüskar və iştirakçı olduğu regional və qlobal layihələr, o cümlədən Orta Dəhlizin təqdim etdiyi logistik potensial Türkiyə ilə qarşılıqlı faydalı əməkdaşlıq üçün əlavə imkanlar yaradır. Orta Dəhlizin rəqəmsal həllərlə gücləndirilməsi və ticarətin asanlaşdırılması üzrə atılan addımlar həm ölkələr, həm də region üzrə tranzit imkanlarını genişləndirir. Yaxın illərdə buraxılış qabiliyyəti ildə 25 milyon tona çatacaq Bakı Beynəlxalq Dəniz Limanı, 9 beynəlxalq hava limanı, regionun ən böyük yük aviaşirkəti və digər infrastruktur üstünlükləri Azərbaycanı mühüm beynəlxalq nəqliyyat qovşağına çevirib. Gələcəkdə Zəngəzur dəhlizinin də beynəlxalq daşımalar üçün tranzit imkanlarının genişlənməsinə mühüm töhfə verəcəyi gözlənilir.

### Kəlbəcər və Laçında türk investorlarının "yaşıl sərmayələri"

Türkiyə və Azərbaycan Qarabağ və Şərqi Zəngəzurda geniş əməkdaşlıq bloku qurub və davamlı layihələr icra edilməkdədir. Ağdam Sənaye Parkı və "Araz Vadisi İqtisadi Zonası" sənaye zonasında yaradılan əlverişli sərmayə imkanları və güzəştlər türkiyəli biznes icması üçün cəlbedici fəaliyyəti təşviq edir. Hazırda digər layihələrin icrası üçün təkliflər nəzərdən keçirilir və birgə investisiyalar üçün böyük potensiallar mövcuddur. Türk iş adamları bu bölgənin "yaşıl enerji" potensialının reallaşdırılması və zəruri nəql infrastrukturunun yaradılmasında da aktiv çalışır, yeni generasiya güclərinin qurulmasına sərmayə yatırır. Kəlbəcər və Laçın rayonlarında 4 kiçik su elektrik stansiyasının bərpası və uzunmüddətli istismarı üzrə layihələrdə Türkiyə investorlarının fəaliyyəti mühüm əhəmiyyət kəsb etməkdədir.

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) icraçı direktoru Yusif Abdullayev isə bildirib ki, Türkiyə şirkətlərinin nümayəndələrinin Azərbaycanın sənaye və logistik infrastrukturunu yaxından tanıması üçün xüsusi iqtisadi zonalara və logistik mərkəzlərə səfərlərinin təşkil edilməsi planlaşdırılır. . Məqsəd tərəfdaşların konkret layihələr üzrə birbaşa tanışlığını təmin etməklə onların investisiya qərarlarının sürətləndirilməsinə dəstək verməkdir.

İnvestisiya Forumu çərçivəsində mühüm sazişlər də imzalanıb. Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə Türkiyənin "Gama Enerji" şirkəti arasında "Gama Enerji İç Anadolu" elektrik stansiyasını satın almasına dair imzalanmış sazişə əsasən, gücü 870 MVt olan elektrik stansiyasının 100 faizlik payı SOCAR-a məxsus olacaq. Sövdələşmənin dəyəri 225 milyon dollar təşkil edir. Bu investisiya SOCAR-ın Türkiyədə enerji istehsalı sahəsində mövqelərini gücləndirməklə yanaşı, Azərbaycan və Türkiyə arasında strateji enerji əməkdaşlığının daha da dərinləşməsinə xidmət edir.

*E.CƏFƏRLİ*

# 100 minlərlə ailə sevinəcək

## Prezident İlham Əliyevin təşəbbüsü ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində qəbul olunan növbəti amnistiya aktının icrasına başlanıb

Prezident İlham Əliyevin təşəbbüsü ilə irəli sürülmüş Milli Məclisin qəbul etdiyi amnistiya aktının icrasına başlanıb. Amnistiya aktının icrası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin cəzaçəkmə müəssisələrində həyata keçirilir. O cümlədən dünən Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin 7 saylı məntəqə tipli cəzaçəkmə müəssisəsində 20, Bakı İstintaq Təcridxanasında 12, 4 saylı cəzaçəkmə müəssisəsində 22 məhkum azadlığa buraxılıb. Növbəti icra prosesi dekabrın 22-də səhər saatlarında Ədliyyə Nazirliyi Penitensiar Xidmətin Yetkinlik yaşına çatmayanlar üçün penitensiar müəssisədə baş tutub. Bu müəssisədə cəza çəkən 3 məhkum azadlığa buraxılıb.

Sənədin icrasının yüksək səviyyədə təmin olunması üçün nazirliyin müvafiq strukturları tam şəkildə səfərbər edilib. Cəzaçəkmə müəssisələrində keçirilən ilk tədbirlərdə hüquq-mühafizə orqanlarının yüksəksəviyyəli rəsmiləri, ombudsman Səbinə Əliyeva, Milli Məclisin deputatları, ictimaiyyət nümayəndələri, jurnalistlər iştirak ediblər.

Dünən Bakı İstintaq Təcridxanasında azadlığa buraxılan Seyidağa Məmmədzadə Prezident İlham Əliyevə amnistiya təşəbbüsü üçün minnətdarlığını bildirib. O, özünün və ailəsinin buna görə çox sevindiyini dilə gətirib, digər məhkumlara da azadlıq arzulayıb. S.Məmmədzadə 5 ay 26 gündür ki, məhkum olunduğunu və cəzasının yarısını çəkdiyini bildirib.

### Heydər Əliyevin əsasını qoyduğu humanizm siyasəti

Azərbaycanda ardıcıllıqla həyata keçirilən siyasətin mərkəzində insan amili dayanır və humanizm prinsiplərinə böyük önəm verilir. Respublikamızda əlamətdar tarixlər ərəfəsində amnistiya aktlarının qəbul edilməsi bunun əyani təsdiqidir. Müstəqil Azərbaycanın dövlət siyasətində humanizm ənənəsinin əsasını isə 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gələn böyük siyasətçi Heydər Əliyev qoyub. Onun siyasi iradəsi əsasında 1995-2003-cü illərdə respublikamızda 7 amnistiya aktı və 32 əfv fərmanı imzalanıb. Bu amnistiya aktları 77 mindən çox insana şamil edilib.

Hazırda isə Ulu Öndərimizin əsasını qoyduğu siyasət eyni ardıcıllıqla Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ümumiyyətlə, müstəqillik illərində imzalanmış 71 əfv fərmanı ilə 10 mindən artıq məhkum azadlığa buraxılıb, qəbul edilmiş 12 amnistiya qərarı isə 130 mindən çox şəxsə şamil olunub. Eyni zamanda, hər zaman nəcib, humanist təşəbbüsləri ilə ali insani dəyərlərə yüksək qiymət verən Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bu istiqamətdəki fəaliyyəti də xüsusi qeyd edilməlidir. Mehriban xanım Əliyeva Milli Məclisin deputatı olarkən onun təşəbbüsü ilə 2007, 2009, 2013 və 2016-cı illərdə amnistiya aktları qəbul edilib. Bu təşəbbüslər xeyirxahlıq və mərhəmət kimi mənəvi idealların təcəssümünə çevrilib və ölkəmizdə təqdirlə qarşılanıb.

Respublikamızda sonuncu Əfv Sərəncamı bu ilin mayında, 28 May - Müstəqillik Günü ərəfəsində imzalanıb. Prezident İlham Əliyevin 26 may 2025-ci il tarixində imzaladığı "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" növbəti sərəncamına əsasən azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş 175 nəfər cəzanın çəkilməmiş hissəsindən azad edilib, həmçinin azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş 25 nəfərin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılıb, azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş və cəzası şərti tətbiq edilmiş 1 nəfər, azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş və cəzalarının çəkilməsi təxirə salınmış 2 nəfər cəzadan azad edilib. Bundan başqa, azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş 10 nəfər cəzanın çəkilməmiş hissəsindən azad edilib, azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş 2 nəfərin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılıb, islah işləri cəzasına məhkum edilmiş 4 nəfər cəzanın çəkilməmiş hissəsindən, cərimə cəzasına məhkum edilmiş 1 nəfər cəzadan azad edilib.



### Müstəqillik dövrünün ən böyük amnistiya aktı

Prezident İlham Əliyevin təşəbbüsü əsasında "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi haqqında Milli Məclisin qərarı kifayət qədər geniş əhatə dairəsinə malikdir. Amnistiya aktının layihəsinə əsasən, Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan döyüş əməliyyatlarında, o cümlədən Vətən müharibəsində və 2023-cü il sentyabrın 19-20-də keçirilmiş antiterror əməliyyatında iştirak etmiş şəxslərin, eləcə də bu əməliyyatlarda həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumlarının, Ermənistan Respublikasının mülki əhaliyə qarşı hərbi təxribatı nəticəsində əlil olmuş şəxslərin, habelə qadınların, 60 yaşına çatmış şəxslərin, cinayət törədərkən yetkinlik yaşına çatmayanların və digər şəxslərin cəzadan və ya cinayət məsuliyyətindən azad edilmələri nəzərdə tutulur.

Bununla yanaşı, layihəyə əsasən, böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət, habelə ehtiyatsızlıqdan cinayət törətdiklərinə görə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş bir sıra şəxslər cəzadan azad ediləcək və ya cəzalarının çəkilməmiş hissəsi azaldılacaq.

Amnistiya aktının, ümumilikdə, 20 mindən çox şəxsə şamil ediləcəyi gözlənilir. Bunlardan 5 mindən çox məhkumun azadlıqdan məhrumetmə cəzasından azad ediləcəyi, həmin cəzaya məhkum olunmuş 3 mindən artıq şəxsin cəzasının azaldılacağı, 7 mindən çox məhkumun azadlığın məhdudlaşdırılması cəzasından, 4 minə yaxın məhkumun azadlıqdan məhrumetmə ilə bağlı olmayan digər cəzalardan və ya şərti tətbiq edilmiş cəzalardan, habelə mindən çox şəxsin cinayət məsuliyyətindən azad ediləcəyi proqnozlaşdırılır. Amnistiya aktının icrasının 4 ay ərzində təmin edilməsi nəzərdə tutulub. Ombudsman Səbinə Əliyeva icrasına başlanan amnistiya aktını sosial ədalətin, mərhəmətin və insan ləyaqətinə hörmətin təzahürü kimi dəyərləndirib.

*Mübariz FEYİZLİ*

# "Qətnamə", yoxsa siyasi təzyiq aləti: ikili standartlar davam edir

## Azərbaycanla suverenliyə müdaxilə dili ilə danışmaq olmaz!

Hüquq anlayışı dövlətçilik institutlarının əsas sütunlarından biri olmaqla, cəmiyyətin sabitliyini, ictimai münasibətlərin tənzimlənməsini və ədalətin təmin olunmasını şərtləndirən fundamental mexanizmdir. Hüququn mövcudluğu isə yalnız qanunların mövcudluğu ilə deyil, həmin qanunların aliliyinə hörmət, onların tətbiqində obyektivlik və milli yurisdiksiyaya ehtiramla ölçülür. Məhz bu baxımdan hüquqi dövlət anlayışı beynəlxalq hüququn da əsas prinsiplərindən biri kimi qəbul olunur. Azərbaycanda hüququn aliliyi tam təmin edilir - ölkə Konstitusiyasına görə hüquqi, dünyəvi və demokratik dövlət olaraq Azərbaycan qanunun aliliyi prinsipinin hər zaman əsas prioritet kimi görür və dəyərləndirir. Amma bu amil deyəsən hansısa özünü "hüquq monopolisti" elan etmiş beynəlxalq yarlıqlı təşkilatları narahat edir. Qeyd edək ki, müasir beynəlxalq münasibətlər sistemində təəssüf doğuran bir tendensiya müşahidə olunur: bəzi beynəlxalq qurumlar hüquq anlayışını siyasi təsir alətinə çevirməyə, onu selektiv və məqsədli şəkildə tətbiq etməyə çalışırlar. Belə hallarda hüquq normativ çərçivədən çıxarılaraq geosiyasi maraqlara xidmət edən vasitəyə çevrilir. Xüsusilə Avropa Parlamenti kimi qurumların ayrı-ayrı suveren dövlətlərə münasibətdə qəbul etdiyi birtərəfli və siyasi motivli "qətnamə" və "qərarlar" bu tendensiyanın bariz nümunəsidir.

**AP-nin selektiv yanaşma "ənənəsi"...**

Bunu təsdiq etmək üçün uzağa getmək lazım deyil - Avropa Parlamentinin son illər Azərbaycanla bağlı qəbul etdiyi sənədlərə baxmaq kifayətdir. Bu sənədlərin əksəriyyəti hüquqi yanaşmadan daha çox siyasi təzyiq mexanizmini xatırladır. "Qətnamə" adı altında qəbul edilən "arzu və istəklər toplusu" beynəlxalq hüququn əsas prinsiplərinə - dövlətlərin suverenliyi, daxili işlərinə qarışmama və milli yurisdiksiyaya hörmət prinsiplərinə ziddir. Hüquq adı altında aparılan bu cür manipulyasiyalar yalnız konkret dövlətə deyil, ümumilikdə beynəlxalq hüquq sisteminin etibarlılığına ciddi zərbə vurur.

Qeyd edildiyi kimi, Avropa Parlamenti uzun müddətdir ki, Azərbaycana münasibətdə fərqli və selektiv yanaşma nümayiş etdirir. Bu yanaşma hüquqi meyarlardan çox siyasi gözləntilər və ideoloji mövqelər üzərində qurulub. Son qəbul edilən qətnamə də bu siyasətin davamı olmaqla, beynəlxalq hüququn fundamental prinsipləri ilə açıq ziddiyyət təşkil edir. Sənəddə yer alan iddialar və tələblər Azərbaycanın suveren hüquqlarına, milli yurisdiksiyasına və hüquqi sisteminə hörmətsizlik nümunəsi kimi qiymətləndirilməlidir.



**BMT Nizamnaməsi ilə zidd olan "qətnamə"...**

İlk növbədə vurğulanmalıdır ki, bu "sənəd" BMT Nizamnaməsi ilə daban-dabana ziddir - Nizamnaməyə əsasən, hər bir dövlət öz ərazisində ictimai asayişin qorunması, konstitusiya quruluşunun müdafiəsi və milli təhlükəsizliyin təmin edilməsi məqsədilə qanunvericiliyini tətbiq etmək, cinayət təqibi aparmaq və məhkəmə ədalət mühakiməsini həyata keçirmək hüququna malikdir. Avropa Parlamentinin konkret cinayət işləri ilə bağlı "hüquqi nəticə" kimi təqdim etdiyi qənaətlər isə faktiki olaraq məhkəmə səlahiyyətlərinin siyasi qərarlarla əvəzlənməsi cəhdi təsiri bağışlayır.

Bu cür yanaşma Avropa Parlamentinin institusional etibarlılığına ciddi suallar yaradır. Çünki hüquqi qiymətləndirmə yalnız müstəqil məhkəmələrin səlahiyyətində olan məsələdir - bu, Avropa Parlamentinin işi deyil. Siyasi platformadan verilən hökmlər hüququn mahiyyətinə zidd olmaqla yanaşı, beynəlxalq münasibətlərdə təhlükəli presedent yaradır. Hüququn siyasiləşdirilməsi isə nəticə etibarilə həm beynəlxalq hüquqa, həm də həmin qurumların öz reputasiyasına zərər vurur.

**AP diktə ritorikasından əl çəkməlidir!**

Avropa İttifaqı strukturlarının, xüsusilə Avropa Parlamentinin Azərbaycanla bağlı tez-tez işlətdiyi "siyasi məhbuslar dərhal azad edilməlidir" kimi ifadələr mahiyyət etibarilə diktə ritoikasıdır. Bu cür ritorika suveren dövlətlər arasında bərabərhüquqlu münasibətlərə uyğun deyil və beynəlxalq hüququn əsas prinsiplərini pozur. Heç bir, hətta beynəlxalq statusa malik olan təşkilatların belə müstəqil dövlətə onun məhkəmə-hüquq sisteminə müdaxilə edəcək şəkildə göstəriş vermək səlahiyyəti yoxdur.

Azərbaycan isə artıq 30 il əvvəlki Azərbaycan deyil. Ölkə regionda yeni siyasi və hüquqi reallıqlar formalaşdıran, milli maraqlarını qətiyyətlə müdafiə edən, güclü dövlət institutlarına malik bir aktordur. Azərbaycan Avropa İttifaqı ilə əməkdaşlığa açıqdır, lakin bu əməkdaşlıq yalnız qarşılıqlı hörmət, suverenliyə ehtiram və daxili işlərə qarışmamaq prinsipləri əsasında inkişaf etdirilir.

Faktlara əsaslanmayan "siyasi məhbus" etiketləməsi isə hüquqi anlayış deyil, siyasi manipulyasiya vasitəsidir. Bu cür terminlərin şablon şəkildə dövriyyəyə buraxılması dialoqa deyil, birtərəfli "ittihama" xidmət edir. Azərbaycan hər zaman bəyan edib ki, tərəfdaşlıq münasibətləri ikili standartlar üzərində deyil, beynəlxalq hüququn norma və prinsipləri əsasında qurulmalıdır. Avropa Parlamenti və Aİ-yə üzv dövlətlər isə bu reallığı qəbul etməli, ritorika və praktikanı hüquqi çərçivəyə uyğunlaşdırmalıdır.

**30 il susan AP indi niyə "aktivləşir"?**

Qətnamədə "siyasi məhbus" anlayışı ilə pərdələnən şəxslərlə bağlı aparılmış istintaq və məhkəmə araşdırmaları Azərbaycan Respublikasının Konstitusiyasına, Cinayət-Prosessual Məcəlləsinə, eləcə də ölkəmizin qoşulduğu Avropa İnsan Hüquqları Konvensiyasına və digər beynəlxalq hüquqi öhdəliklərə tam uyğun şəkildə həyata keçirilib. Cinayət məsuliyyəti həmin şəxslərin konkret, sübuta yetirilmiş qanunazidd əməlləri əsasında müəyyən edilib və bu proseslərdə hüquqi prosedurların pozulması faktı mövcud deyil. Bu məhada, "özbaşına həbs", "siyasi məhbus" və "akademik azadlıqların boğulması" kimi anlayışların sübutsuz şəkildə dövriyyəyə buraxılması hüquqi qiymətləndirmə yox, məqsədli dezinformasiya xarakteri daşıyır. Bu, Avropa Parlamentinin selektiv yanaşmasının bariz nümunəsidir. Xüsusilə diqqətçəkən məqam ondan ibarətdir ki, eyni qurum uzun illər ərzində Azərbaycan ərazilərinin işğalı dövründə yüz minlərlə azərbaycanlının fundamental hüquqlarının kobud şəkildə pozulmasına ya səssiz qalıb, ya da formal mövqe ilə kifayətlənib.

### Avropa Parlamentinin hüququ siyasiləşdirmək cəhdi

Etnik təmizləmə, mədəni və dini irsin məhv edilməsi faktlarına qarşı göstərilən bu laqeydlik bu gün səsləndirilən iddiaların səmimiliyini tamamilə şübhə altına alır. Azərbaycan dövlətinin qanunları var və kimliyindən, statusundan asılı olmayaraq hər kəs qanun qarşısında bərabərdir. Avropa Parlamentinin isə suveren dövlətə "dərhal azad et" kimi göstəriş vermək ixtiyarı yoxdur və belə cəhdlər hüquqi baxımdan əsassızdır.

**Belə yanaşmalar AP-nin özünə ziyan gətirir**

Azərbaycan hüquqa və qanunun aliliyinə hörmət edən dövlətdir. Ölkədə məhkəmə-hüquq sistemi milli qanunvericiliyə və beynəlxalq öhdəliklərə uyğun şəkildə fəaliyyət göstərir. Bu baxımdan Avropa Parlamentinin qəbul etdiyi siyasi motivli qətnamələr hüquqi deyil, siyasi xarakter daşıyır. Hüquqi təzyiq alətinə çevrilmək cəhdləri isə nə Azərbaycanın mövqeyini zəiflədə, nə də ölkəni öz suveren qərarlarından geri çəkdirə bilər. Əksinə, bu cür yanaşmalar beynəlxalq hüquq sisteminin özünə zərər vurur və həmin qurumların etibarlılığını sarsıdır. Suveren dövlətlərin daxili işlərinə müdaxilə, məhkəmə qərarlarının siyasiləşdirilməsi və faktlara əsaslanmayan ittihamlar beynəlxalq münasibətlərdə yolverilməzdir. Azərbaycan öz hüquqi sistemini, milli maraqlarını və suverenliyini qorumaqda qətiyyətlidir və bu mövqedən geri addım atmır.

*P.İSMAYILOV*

**İrəvan Azərbaycanın regional inkişaf strategiyasını qəbul etdiyini bəyan edir**

# Sankt-Peterburqda sülh və Zəngəzur dəhlizi (TRİPP) mesajı...

## Region artıq keçmişin münaqişə yükünü deyil, gələcəyin əməkdaşlıq imkanlarını daşımağa başlayır

Artıq 5 ildir ki, yeni inkişaf mərhələsi yaşayan, yeni siyasi reallıqlara əsaslanan Cənubi Qafqaz özünün identikliyi ilə beynəlxalq münasibətlər sistemində önə çıxmaqdadır. Bu mərhələ regionun həyatında yeni - sabit, inkişafa yönəlik dövrün başlanğıcı kimi də qeyd edilə bilər. Bu gün yeni iqtisadi nizamın formalaşdığı zamanda Cənubi Qafqazın stabil və sabit məkan kimi şöhrət tapması, tanınması qlobal diqqəti bizim coğrafiyaya fokuslandırır.

Sirr deyil ki, son beş ildə Cənubi Qafqazda baş verən fundamental geosiyasi dəyişikliklər isə bölgədə sülhün alternativsiz olduğunu açıq şəkildə ortaya qoyub. 2020-ci il Vətən müharibəsi və ardınca həyata keçirilən lokal antiterror tədbirləri regionda onilliklər boyu mövcud olan qeyri-müəyyənlik, işğal və qarşıdurma mərhələsinə son qoyaraq tamamilə yeni siyasi reallıq formalaşdırdı. Bu reallıq tək Azərbaycan üçün deyil, bütövlükdə, Cənubi Qafqaz üçün inkişafın, əməkdaşlığın və təhlükəsizliyin yeni mərhələsinin əsasını qoydu.






### Cənubi Qafqaz üçün yeni imkanlar, yeni əməkdaşlıq formatları və dayanıqlı inkişaf perspektivləri...

Son bir ildə baş verənlərə nəzər salsaq görərik ki, artıq sülh ideyası romantik çağırış deyil - sülh ideyası qlobal aləmdə də obyektiv zərurət kimi qəbul olunur. İstər bölgə dövlətləri, istərsə də beynəlxalq güclər Avrasiyanın yeni iqtisadi-siyasi konfiqurasiyasının məhz Cənubi Qafqazda sabitlik və əməkdaşlıq mühitinin formalaşmasından birbaşa asılı olduğunu həm qəbul edir, həm də təsdiqləyir. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişdiyi bu strateji coğrafiyada sülhün möhkəmlənməsi ticarət, enerji, logistika və kommunikasiya imkanlarını əhəmiyyətli dərəcədə genişləndirir. Məhz bu səbəbdən regionda sülh təkcə yerli dövlətlərin deyil, qlobal güc mərkəzlərinin də maraq dairəsindədir.

Avqust ayında Vaşinqtonda keçirilən yüksək səviyyəli görüşlər sülh prosesinin real və geri dönməz mərhələyə keçdiyini göstərdi. Diplomatik müstəvidə əldə olunan razılaşmalar, tərəflərin açıq bəyanatları və praktiki addımlar sübut edir ki, artıq proses deklarativ səviyyəni geridə qoyub. Bu mərhələ Cənubi Qafqaz üçün yeni imkanlar, yeni əməkdaşlıq formatları və dayanıqlı inkişaf perspektivləri vəd edir. Ən diqqətçəkən məqam isə ondan ibarətdir ki, sülhün reallaşması faktını artıq Ermənistanın siyasi rəhbərliyi də açıq şəkildə etiraf edir.

### Paşinyanın etirafı: mühüm və müsbət proseslər...

Yeri gəlmişkən, Ermənistanın baş naziri Nikol Paşinyan Sankt-Peterburqda Rusiya Prezidenti Vladimir Putinlə görüşü zamanı Ermənistanla Azərbaycan arasında sülhün artıq bərqərar olduğuna əminliyini ifadə edib. O, Cənubi Qafqazda mühüm və müsbət proseslərin baş verdiyini bildirib. Onun sözlərinə görə, Ermənistanla Azərbaycan arasında əldə olunmuş sülh İrəvanla Moskva arasında ikitərəfli münasibətlərin gələcək inkişafı üçün yeni imkanlar açır.

Paşinyanın səsləndirdiyi fikirlər Cənubi Qafqazda formalaşmış yeni reallıqların rəsmi İrəvan tərəfindən qəbul edildiyinin növbəti nümayişidir. Paşinyanın bölgədə "mühüm və müsbət proseslərin baş verdiyini" bəyan etməsi, əslində, uzun illər Ermənistanın yürütmüş olduğu konfrontasiya siyasətinin iflasa uğradığının açıq etirafıdır. Onun Ermənistan-Azərbaycan sülhünün İrəvan-Moskva münasibətlərinin gələcək inkişafı üçün yeni imkanlar açdığını vurğulaması da təsadüfi deyil. Bu, Ermənistanın regionda təcrid vəziyyətindən çıxmaq və əvvəlki balanssız siyasətinin nəticələrini aradan qaldırmaq cəhdidir. Paşinyan artıq anlayır ki, Azərbaycanla sülh olmadan nə Rusiya ilə münasibətləri sağlam müstəviyə qaytarmaq, nə də regionda etibarlı tərəfdaş imici formalaşdırmaq mümkündür.

Əslində, bu açıqlama Ermənistanın regional siyasətində məcburi transformasiyanın göstəricisidir. Azərbaycan tərəfindən yaradılan yeni təhlükəsizlik və əməkdaşlıq arxitekturası İrəvanı reallıqları qəbul etməyə vadar edir. Bakı sülh gündəliyini ardıcıl və prinsipial şəkildə irəli sürməklə Ermənistana açıq seçim təqdim edir: ya regional əməkdaşlığa qoşulmaq, ya da tam geosiyasi dalana çevrilmə riski ilə üz-üzə qalmaq - artıq seçim İrəvanındır.

### "Tarixi hadisə": Bakının qətiyyətinin nəticəsi

Ermənistanın hökumət başçısı görüşdə, həmçinin Ermənistanla Azərbaycan arasında sülhün artıq reallaşdığını hesab etdiyini bildirib və dəmir yolu əlaqəsinin bərpa olunmasına diqqət çəkib. "Düşünürəm ki, bu, həqiqətən tarixi hadisədir. Sizin də qeyd etdiyiniz kimi, yeni imkanlar açılır", - deyə o əlavə edib.

Nikol Paşinyanın Ermənistanla Azərbaycan arasında sülhün artıq reallaşdığını bildirməsi və dəmir yolu əlaqələrinin bərpasını "tarixi hadisə" kimi dəyərləndirməsi prosesin hansı mərhələyə çatdığını açıq şəkildə göstərir. Bu bəyanat, əslində, Azərbaycanın uzun illərdir müdafiə etdiyi kommunikasiya xətlərinin açılması konsepsiyasının haqlı və strateji baxımdan düzgün olduğunu bir daha təsdiqləyir. Aydındır ki, dəmir yolu əlaqələrinin bərpası təkcə iki ölkə arasında texniki-logistik məsələ deyil. Bu, regionun iqtisadi xəritəsini dəyişən fundamental addımdır. Azərbaycan bu prosesi zorakılıqla deyil, siyasi iradə, hüquqi əsaslar və beynəlxalq legitimlik çərçivəsində reallaşdırmağa nail olub. Bakının qətiyyəti və prinsipial mövqeyi nəticəsində Ermənistan nəhayət, başa düşüb ki, regional kommunikasiyaların açılması onun özü üçün də iqtisadi və siyasi baxımdan faydalıdır. Bu "tarixi hadisə"nin baş tutmasının əsas səbəbi Azərbaycanın liderlik rolu və strateji baxışıdır. Bakı sülhü güzəşt və ya diktə kimi deyil, qarşılıqlı maraqlar əsasında formalaşan rasional proses kimi təqdim edir. Nəticədə Ermənistan uzun müddət müqavimət göstərdiyi reallıqla barışmağa məcbur qalır. Bu, sülh prosesinin əsas uğur göstəricilərindən biridir.

### Yeni regional gələcəyin konturları

N.Paşinyan, eyni zamanda, Ermənistanın ABŞ ilə "Beynəlxalq Sülh və Rifah naminə Tramp marşrutu" (TRIPP) layihəsi üzrə apardığı ikitərəfli danışıqların konstruktiv xarakter daşıdığını bildirib. O qeyd edib ki, bu layihənin həyata keçirilməsi Ermənistan-Rusiya münasibətlərinə dair bir sıra məqamlarla bağlıdır və MDB dövlət başçılarının qeyri-rəsmi sammiti çərçivəsində Rusiya Prezidenti ilə baş tutan görüşün bütün bu məsələlərin müzakirəsi üçün yaxşı fürsət olduğunu vurğulayıb.

Paşinyanın ABŞ ilə "Beynəlxalq Sülh və Rifah naminə Tramp marşrutu" (TRIPP) layihəsi üzrə aparılan danışıqları konstruktiv adlandırması bir daha onu göstərir ki, Cənubi Qafqaz artıq qapalı qarşıdurma zonası deyil, qlobal layihələrin kəsişmə nöqtəsinə çevrilməkdədir. Zəngəzur dəhlizinin (TRIPP) reallaşması regionun gələcək iqtisadi və nəqliyyat arxitekturasının formalaşmasına ciddi təsir göstərə bilər. Burada əsas məqam ondan ibarətdir ki, bu cür layihələrin uğuru birbaşa Azərbaycanla sülhün mövcudluğundan asılıdır. Ermənistan bunu artıq anlayır və sülh gündəliyinin gələcək perspektivini dərk edir.

Paşinyanın Rusiya ilə münasibətlər kontekstində bu layihəni müzakirə etməsi də Ermənistanın balans axtarışında olduğunu göstərir. Lakin bu balansın mərkəzində yenə də Azərbaycan faktoru dayanır. Bakı regionda elə bir yeni reallıq yaradıb ki, bütün güclər və tərəflər, beynəlxalq aktorlar bu reallıqla hesablaşmağa məcburdur. Zəngəzur dəhlizi (TRIPP) kimi təşəbbüslər də məhz bu yeni gələcəyin iqtisadi əsaslarını formalaşdıracaq.

### Sülh artıq siyasi şüar deyil

Cənubi Qafqazda sülh artıq siyasi şüar deyil, formalaşmaqda olan real prosesdir. Bu prosesin mərkəzində isə Azərbaycanın qətiyyəti, prinsipial mövqeyi və uzaqgörən siyasəti dayanır. Regionda yeni münasibətlər sistemi məhz Bakının təşəbbüsləri əsasında qurulur və bu sistem qarşıdurmaya deyil, əməkdaşlığa əsaslanır. Ermənistanın sülhü etiraf etməsi, kommunikasiya xətlərinin açılmasını dəstəkləməsi və regional layihələrə maraq göstərməsi Azərbaycanın yaratdığı yeni reallıqların nəticəsidir. Bu, eyni zamanda, sübut edir ki, güc və hüquq balansını düzgün quran dövlət sonda istədiyi nəticəyə sülh yolu ilə nail ola bilər.

Sülh Cənubi Qafqazın gələcəyi üçün ən zəruri amildir. Bu gələcək sabitlik, inkişaf və rifah üzərində qurulur. Azərbaycanın formalaşdırdığı yeni münasibətlər sistemi isə bu gələcəyin əsas təminatçısı kimi çıxış edir. Region artıq keçmişin münaqişə yükünü deyil, gələcəyin əməkdaşlıq imkanlarını daşımağa başlayır.

*Pərviz SADAYOĞLU*

# Azərbaycan və CAREC ölkələri üçün yeni fürsət

## Asiya Bankı üzv ölkələr arasında ticarətin rəqəmsallaşdırılmasına maliyyə dəstəyi göstərəcək

Asiya İnkişaf Bankı (AİB) Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq Proqramı (CAREC) çərçivəsində regional layihələrin maliyyələşdirilməsinə başladanıldığını açıqlayıb. Bankın məlumatına görə, CAREC proqramı çərçivəsində 2030-cu ilə qədər inteqrasiya olunmuş ticarət gündəliyinin ikinci mərhələsi olan "Rəqəmsal ticarətin sürətləndirilməsi" layihəsinin həyata keçirilməsi üçün texniki şərtlər razılaşdırılıb və təsdiqlənib. Azərbaycan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Monqolustan, Pakistan, Çin, Tacikistan, Türkmənistan və Özbəkistanı əhatə edəcək layihəni AİB-in yaxın tərəfdaşı olan Cənubi Koreyanın Elektron Asiya və Bilik Tərəfdaşlığı Fondu maliyyələşdirəcək. Layihə ticarət sənədlərinin rəqəmsallaşdırılmasını, rəqəmsal ticarət üzrə model qaydalarını, prinsip və standartlarını, sərhədlərarası məlumat axınını idarəetmə sisteminin və ödənişlərin təşviqini nəzərdə tutur.

### Elektron ticarətin yeni qaydaları müəyyənləşir

AİB-in açıqlamasında vurğulanır ki, rəqəmsal ticarətin genişləndiyi bir mərhələdə bəzi CAREC ölkələrində elektron ticarət sənədləri üzrə prosedurlar hələ tam tamamlanmayıb. Həmin ölkələr tərəfindən rəqəmsal strategiyalar qəbul edilsə də, bu, e-ticarət üzrə model qaydalar, prinsiplər və standartlardan tam şəkildə istifadə olunmur. Rəqəmsal ödəniş siyasətindəki fərqlər və ödəniş sistemlərinin uyğunsuzluğu səbəbindən sərhədlərarası ödənişlərdə ciddi bir problemlər meydana çıxır ki, bu da elektron əməliyyatları məhdudlaşdırır. Bu baxımdan e-ödəniş infrastrukturu ilə bağlı asan sistemin qurulması vacibdir və pilot layihələrin həyata keçirilməsi ilə bu çətinlikləri həll etmək mümkündür. Eyni zamanda, rəqəmsal ticarətin və digər biznes fəaliyyətlərinin əsasını təşkil edən sərhədlərarası məlumat axını zamanı tələb olunan məxfilik və kibertəhlükəsizlik məsələləri üzrə idarəetmə sisteminin gücləndirilməsinə ehtiyac vardır ki, üzv ölkələr bu amili xüsusi olaraq nəzərə almalıdır. Bütün bu amilləri nəzərə alan AİB icra ediləcək layihənin müsbət nəticələri sayəsində rəqəmsal ticarət sahəsində mübadilə və informasiya sistemlərinin gücləndirilməsinə ümid edir.



### Bakı Bəyannaməsindən irəli gələn tələblər

Qeyd edək ki, CAREC Tərəfdaşlığına dair Bakı Bəyannaməsi 2024-cü il noyabrın 14-də COP29 çərçivəsində CAREC ölkələrinin Azərbaycanda keçirilən Yüksək Səviyyəli Sessiyasında imzalanıb. Asiya İnkişaf Bankının Mərkəzi və Qərbi Asiya üzrə Əməkdaşlıq və İnteqrasiya Departamentinin dəstəyi ilə keçirilən sessiyada CAREC Proqramının regional inkişafda töhfələrinin artırılması məqsədilə yeni prioritetlər müəyyənləşib. Bakı Bəyannaməsi müxtəlif sektorlar üzrə yüksək keyfiyyətli layihələrə, o cümlədən prioritet istiqamətlərə sərmayə qoymaqla regional əməkdaşlığın gücləndirilməsini dəstəkləyir ki, onlardan ən mühümü qlobal nəqliyyat, logistika imkanlarının artırılması məqsədilə ticarətin asanlaşdırılması, o cümlədən rəqəmsal ticarətə keçidin sürətlənsirilməsini nəzərdə tutur.

AİB regionda mühüm nəqliyyat qovşağına çevrilən Azərbaycanın Asiya-Cənubi Qafqaz-Avropa coğrafiyasında mühüm logistik potensialını və əlaqələndirici kommunikasiya üstünlüklərini nəzərə alaraq transsərhəd və tranzit prosedurlarının, logistikanın davamlı olaraq təkmilləşdirilməsi və ticarətin rəqəmsallaşması üçün texniki və maliyyə yardımı göstərməyə hazır olduğunu bəyan edib. Bu məqsədlə Azərbaycanın CAREC ölkələri ilə ticarət və investisiya əlaqələrinin gücləndirilməsini nəzərdə tutan "Rəqəmsal ticarətin sürətləndirilməsi" layihəsi hazırlanıb.

### Xarici ticarət asanlaşması investisiya imkanlarını artıracaq

Yeni layihənin icrası e-ticarət qaydalarının asanlaşması sayəsində böyük bir coğrafiyada rəqəmsal habın formalaşmasını təmin etməklə Azərbaycanın CAREC ölkələri ilə ticari-logistik münasibətlərini də genişləndirəcək. Xatırladaq ki, 2024-cü ildə Azərbaycan ilə CAREC-ə üzv dövlətlər arasında ticarət dövriyyəsi 5 milyard dolları ötüb və CAREC ölkələrinin Azərbaycanın ümumi xarici ticarətində payı 12 faizə çatıb. Eyni zamanda, respublikamız təşkilata üzv olan ölkələrinin iqtisadiyyatına birbaşa 4,2 milyard dəyərində investisiya yatırıb, qarşı tərəfin də sərmayələrində artımlar baş verib.

Hədəflər isə böyükdür və daha böyük ticarət dövriyyələrinin əldə olunması. Bunun üçün asan ticarət, preferensial qaydaların tətbiqi, sərhədkeçmə prosedurlarının rəqəmsal arxitektura üzərində inkişafı, habelə logistik daşınmalarda ənənəvi nəqliyyat tranzitlərinin rolunun azaldılması və "yaşıl nəqliyyat" sxemlərinin həyata keçirilməsi planlaşdırılır. Bu hədəflərin reallaşması sayəsində Azərbaycan- CAREC ölkələri arasında ticarət, investisiya imkanları da xeyli artmış olacaq.

Beləliklə, Asiya İnkişaf Bankının maliyyə dəstəyi göstərdiyi "Rəqəmsal ticarətin sürətləndirilməsi" layihəsinin icrası rəqəmsal və "yaşıl prinsiplərin" tətbiqinə imkan verməklə, bölgədə ticarəti şaxələndirəcək, ölkəmizin xarici ticarət tərəfdaşları ilə əlaqələrini daha da genişləndirəcək.

*E.CƏFƏRLİ*

# Milli təhlükəsizlik üçün...

## Vaşinqton Qrenlandiyanın ilhaqı ilə bağlı hərəkətə keçdi

Ötən ilin sonundan beynəlxalq gündəmə daxil olan "Qrenlandiyi məsələsi" daha ciddi müstəviyə daşınır. Belə ki, ABŞ-ın adanı öz yuridiksiyasına qatmaq fikrində ciddi olması ortaya çıxır. Prezident Tramp adanın hakimiyyəti ilə birbaşa əlaqələr qurmaq üçün Luiziana ştatınının respublikaçı qubernatoru Ceff Lendrini ABŞ-ın Qrenlandiya üzrə xüsusi elçisi təyin edib. Bu barədə Tramp "Truth Social" sosial media hesabında bildirib. O qeyd edib ki, "Lendri Qrenlandiyanın milli təhlükəsizliyimiz üçün nə qədər vacib olduğunu başa düşür. O, dünyanın təhlükəsizliyini, mühafizəsini və yaşamasını təmin etməkdə millətimizin maraqlarını fəal şəkildə irəli aparacaq".

### Yeni elçi...

Tramp vurğulayıb ki, Biz Qrenlandiyanı əldə etməliyik. O bildirib ki, bu ərazi ABŞ-a vacib minerallar deyil, milli təhlükəsizlik üçün lazımdır. Lendri isə deyib ki, onun üçün Qrenlandiyanı ABŞ-ın bir hissəsinə çevirmək böyük şərəfdir və bu təyinat onun qubernator kimi işinə təsir göstərməyəcək. Qeyd edək ki, Ağ Ev Trampın 2024-cü ildə Luizinananın qubernatoru olan 54 yaşlı respublikaçını bu vəzifəyə niyə təyin etdiyinin izahını verməyib. İnzibati ərazi olaraq Luiziana və Qrenlandiyanın mərkəzləri arasındakı hava yolu təxminən 4600 kilometrə bərabərdir. Qrenlandiyaya daha yaxın olan şimal ştatlarının qubernatorları isə əsasən demokratlardandır. Xarici media yazır ki, ənənəvi olaraq, Ağ Ev beynəlxalq böhranlar və mürəkkəb danışıqlar zamanı xüsusi elçilər təyin edir.

### Adalılar müstəqillik istəyir, amma...

Qeyd edək ki, Qrenlandiya Danimarkanın hüquqi yurisdiksiyasına daxil olan və dünyanın ən böyük adasıdır. Arktikada yerləşən muxtar bölgənin böyük hissəsi buzla örtülüdür. Qrenlandiyada əsasən adanın yerli inuitləri olan cəmi 57.000 nəfər yaşayır. 2025-ci il üçün ictimai rəy sorğuları göstərir ki, qrenlandiyalıların əksəriyyəti Danimarkadan müstəqillik tələb edir - amma onlar ABŞ-a birləşmənin tərəfdarı deyillər.

İkinci prezidentlik müddətinin əvvəlindən bəri Donald Tramp dəfələrlə Qrenlandiyanı ilhaq etməklə bağlı planlarını açıqlayıb və bunu milli təhlükəsizlik amili ilə əlaqələndirib. 2025-ci ilin mart ayında NATO-nun baş katibi Mark Rutte ilə görüşündə ABŞ prezidenti Qrenlandiyanın mümkün ilhaqı ilə bağlı suala cavab olaraq bildirmişdi ki, "düşünürəm ki, bu baş verəcək".



### Danimarka etiraz edir...

Danimarkanın Xarici İşlər Nazirliyi ABŞ prezidenti Donald Trampın Qrenlandiya üzrə xüsusi nümayəndə təyin etməsindən sonra bu ölkənin Danimarkadakı səfiri Ken Hauerini nazirliyə çağırıb. Bu barədə ölkənin xarici işlər naziri Lars Lokke Rasmussen TV 2 telekanalına müsahibəsində bildirib. Nazirin sözlərinə görə, yaxın vaxtlarda səfirlə görüş keçiriləcək və rəsmi Kopenhagen iki əsas tələblə çıxış edəcək: məsələyə aydınlıq gətirilməsi və ABŞ tərəfinin izahat verməsi. Rasmussen Danimarka Krallığının suverenliyinin şübhə altına alınmasının qəbuledilməz olduğunu vurğulayıb.

Danimarka hökumətinin başçısı Yens-Frederik Nilsen isə bildirib ki, ABŞ-ın xüsusi nümayəndə təyin etməsi mövcud vəziyyəti dəyişmir və Qrenlandiya qrenlandiyalıların ərazisi olaraq qalır. "Biz yenidən ABŞ prezidentinin Qrenlandiya ilə bağlı yeni bəyanatı ilə oyandıq. Xüsusi nümayəndənin təyinatı böyük addım kimi görünə bilər, amma bizim üçün heç nəyi dəyişmir. Qrenlandiya qrenlandiyalılara məxsusdur və ərazi bütövlüyünə hörmət edilməlidir. Biz ABŞ da daxil olmaqla digər ölkələrlə əməkdaşlığa açığıq", - deyə Nilsen "Facebook" hesabında yazıb.

### Aİ də münasibət bildirib

Qeyd edək ki, Avropa İttifaqı da ABŞ-ın yeni təyinatına münasibət bildirib. "Reuters" agentliyinin verdiyi məlumata görə, Avropa Komissiyasının (AK) sözçüsü Anouar El Anouni bildirib ki, "Danimarka Krallığının ərazi bütövlüyünün, onun suverenliyinin və sərhədlərinin bütövlüyünün qorunması Avropa İttifaqı üçün həyati əhəmiyyət kəsb edir".

***SADİQ***

# Qızıl tarixi rekordu təzələdi

## Qiymətli metalın bir unsiyası 4500 dolları ötüb

Son bir ayda qlobal bazarlarda səhm və virtual pul alətlərinin, eləcə də qiymətli metalların dəyərlərində baş verən ucuzlaşmalar yenidən əks istiqamətdə davam etməyə başlayıb. Əgər noyabrın sonlarında və dekabrın birinci ongünlüyündə beynəlxalq birjalarda səhm və qiymətli kağızların, kriptovalyutaların dəyərində ucuzlaşmalar müşayiət olunurdusa, dekabrın ikinci ongünlüyündə həmin aktivlərin hər birində bahalaşmalar qeydə alınmaqdadır. Belə ki, 10 gün əvvəl qızılın bir troya unsiyasının qiyməti 4080 dollara düşmüşdüsə, dünən birja dəyəri tarixində ilk dəfə sarı metalın bir unsiyası 4500 dollara çatıb. Bu, qızılın birja satışlarındakı rekordu təzələməsidir. Nyu-York Əmtəə Birjasında qiymətli metalın yeni fyuçers qiyməti hətta 4 511,65 dollar səviyyəsinə yüksəlib. "Bloomberg" tədqiqat institunun hesablamalarına görə, 2025-ci ilin əvvəlindən etibarən qızılın birja qiymətləri 60 faizdən çox artıb.

### FES-in uçot dərəcəsini endirməsi birjalarda durğunluğu aradan qaldırıb

Qızıl riskdən qorunma aləti və qiyməti dollarla ifadə olunduğu üçün bu valyutanın dəyərinin dəyişməsinə həssas reaksiya verir. Dolların alıcılıq qabiliyyətinin və bazar indeksinin güclənməsi qızıl üçün mənfi amil olmaqla sarı metala yatırımlara xərclərin dəyərini artırır. Qızıl dividend verən istiqrazların gəlirliliyi ilə də bağlıdır. Qızıl dividend vermədiyi halda və digər aktivlər daha əlverişli olduqda investorlar xərcləri həmin istiqamətə yönəldir və qızılın dəyəri düşür. Bu baxımdan beynəlxalq alıcıların qızıl yatırımlarına xərcləri artdığından alış imkanları da çətinləşir. Dolların dəyər itirməsi və pul-kredit siyasətində yumşalmalar isə yuxarıdakı proseslərin əksinə baş verməsinə səbəb olur. "Bloomberg"in qənaətinə görə, son 10 gündə bazar fraqmentasiyalarındakı dəyişikliklər qızılın satış templərlərindəki müsbət dinamikanı təmin edib və mərkəzi bankların və investorların yenidən aktiv şəkildə alışlara sərmayə qoyması dayanıqlı xarakter almaqdadır. Eyni zamanda, investorların istiqraz, səhm və virtual pul valyutalarına marağı yüksəlib.

Qızın dəyəri ilə bağlı baş verən dinamikanın arxasında isə Amerika Birləşmiş Ştatlarının mərkəzi bank funksiyalarını yerinə yetirən Federal Ehtiyat Sisteminin (FES) dekabrın 10-da uçot faiz dərəcəsini illik 3,5-3,75 faiz aralığına endirməsi əsas amil kimi dayanır. FES-in faiz dərəcəsini 0,25 faiz-bənd endirməsi pul siyasətinin liberallaşmasını sürətləndirməklə, valyuta bazarında dolların ucuzlaşmasına səbəb olmaqdadır. ABŞ pulu son 10 gündə digər aparıcı valyutalar qarşısında ucuzlaşmaqdadır. İngiltərə funtu ABŞ dolları qarşısında kəskin şəkildə bahalaşmaqda davam edir, GBP-USD cütlüyü 1.3339 həddindən 1.3445 həddinə kimi yüksəlib. Eləcə də avro-dollar mübadiləsi 1.703 səviyyəsindən 1.1726 səviyyəsinədək yüksəlib. Habelə dollar-yapon yeni üzrə mübadilə 154.58 səviyyəsindən 161.08 səviyyəsinədək geriləyib.



### 2026-cı ildə qızılın dəyərinin 4550 dolları ötəcəyi fərz edilir

Qızılla bağlı gözləntilər daha nikbindir, bir unsiyanın 4550 dollara qalxacağı istisna edilmir. Məlumdur ki, ABŞ-da Tramp administrasiyasının iqtisadi baxışı və maliyyə siyasəti ucuz dollar, bahalı qızıl və səhmlər, rəqəmsal valyuta çərçivəsinə əsaslanır. Çünki dolların ucuzlaşması istehsal və ixracı yüksəldir ki, bu da Amerikadan qlobal bazarlara daha çox mal və əmtəələrin çıxışına səbəb olur. Çünki dolların ucuzlaşması istehsal və ixracı yüksəldir ki, bu da Amerikadan qlobal bazarlara daha çox mal və əmtəələrin çıxışına səbəb olur. Bu siyasət nəticə etibarilə iqtisadi aktivliyi və ixrac gəlirlərini yüksəldir. Dollar ucuzlaşanda isə qızıl və blokçeynlər bahalaşır.

Bu baxımdan Federal Ehtiyat Sisteminin yumşaq pul siyasəti Amerika valyutasını ucuzlaşdırmaqla, rəqəmsal valyuta və qızıl birjalarını daha da canlandırır.

Qlobal bazar analitiklərinin fikrincə, ABŞ Federal Ehtiyatlar Sisteminin 2026-cı ilin ilk ayında pul-kredit siyasətini yumşaldacağı istisna deyil. FES-dəki bəzi ekspertlərin səsləndirdikləri fikirlər də ona dəlalət edir ki, yanvarda uçot dərəcəsi yenidən 0,25 faiz- bənd azaldılacaq. Bu proqnozlar isə investorlarda yeni motivasiyaları gücləndirir və bu ssenarilər fonunda qızıla "güvənli liman" maliyyə aləti kimi tələb artır. Bu səbəbdən sarı metalın dəyərinin ən azı 2-3 ay artmqada davam edəcəyi fərz olunur. Böyük Britaniyanın ən böyük bankı "HSBC"nin proqnozuna əsasən, 2026-cı ildə qızılın unsiya qiymətinin 5000 dollar olacağı ehtimal edilir. Qızılın dəyərinin artacağı ilə bağlı mühakimə yürüdən digər institutların ekspertləri isə bu qənaətdədirlər ki, 2026-cı ildə qiymətlərin yenidən yüksəlmə ehtimalı ən azı 5-10 faiz həddində olacaq.

***E.CƏFƏRLİ***

# Yüz ilə sığmayan gün

## Çingiz Aytmatovun "Gün var əsrə bərabər" romanı haqqında

**əvvəli ötən sayımızda**

Yazıçı buradan əsərin daha bir qatına - fantastik-utopik süjetə yol açır. Birgə kosmik layihəni icra eləyən sovet-amerikan kosmonavtları qonşu qalaktikadakı Meşəlidöş planetinin sakinləriylə əlaqə yaradır, yerdənkənar sivilizasiyanın dəvətiylə onların dünyasına səfərə gedirlər...

Bəzi tənqidçilər bu fantastik süjeti əsərə yamaq sayırlar (onlara imkan versən, "Hərb və sülh"ü yarıbayarı ixtisara salarlar), ancaq məncə, müəllifin utopiyası onun bədii-fəlsəfi məramını çox aydın, çox da yaxşı ifadə eləyir. Yazının əvvəlində xatırlatdığımız iki mifik süjet bəşəriyyətin qaranlıq keçmişinə işıq tutursa, böyük humanist ədəbiyyatın bünövrəsi üstündə ərsəyə gəlmiş - ali sivilizasiya, azad, ruhani cəmiyyətlə bağlı fantastik süjet də insanlığın gələcəyinə bələdçilik eləyir, söz-kəlam peyğəmbərlərinin ənənəsini unudulmağa qoymur. Aytmatovun Meşəlidöş planeti Platonun ideal dövlətindən tutmuş Nizaminin utopik cəmiyyətinə, Məsihin Tanrı səltənətindən tutmuş Nitsşenin Hiperboreyasına qədər bütün ilahi toplum modellərinin varisi, davamıdır. Bu planet şərin həmin o iki qütbü arasından, dəmir yolların çalın-çarpaz dağladığı barsız-bəhərsiz çöllərin isti-soyuq cəhənnəmindən göyə pərvazlanan ruhların can atdığı son mənzil, baş qoyduğu uca dərgahdır. Müəllif qəhrəmanının gözüylə bəşəriyyətin keçmişinə, gələcəyinə indidən baxır.

***

Qazanqapın şəhərdən gəlmiş oğlu mərasimi tezbazar başa çatdırmağa çalışsa da, Yedigey dostunun vəsiyyətini yerinə yetirmək üçün inad göstərir: meyit Ana-Beyitə aparılmalıdır, vəssalam! Çünki o torpağa onların əcdadları üz qoyub, həm də bu qəbiristanlığın bir ayrı tarixi var...

Rəvayətə görə, bu yerləri zəbt eləyən juanjuanlar əsir tutduqları düşmən döyüşçüləriylə çox amansız rəftar eləyirmişlər. İmkan tapanda əsiri qul kimi qonşu ölkələrə satırmışlar, bu da əsirdən ötrü xoşbəxtlik sayılırmış, çünki nə vaxtsa azad olacağına, ya da qaçıb qurtaracağına zavallının az da olsa ümidi qalırmış: "Juanjuanların özləri üçün qul saxladıqları əsirləri isə dəhşətli tale gözləyirdi. Onlar öz qurbanlarının başına zif keçirib dözülməz işgəncə verərək onun yaddaşını tamam yox eləyirmişlər. Bu işi adətən davada əsir alınmış cavan döyüşçülərin başına gətirirmişlər. Əvvəlcə onların başını qırxıb tüklərini bir-bir dibinəcən təmizləyirmişlər. Başı qırxıb qurtaranacan juanjuanların təcrübəli sallaqları lap yaxınlıqda qart bir dəvə kəsərmiş. Dəvənin dərisini soyanda əvvəlcə onun ən ağır, ən möhkəm olan boyun dərisindən başlayarmışlar. O dəqiqə də hissələrə bölüb, buğlana-buğlana saçı qırxılmış əsirlərin başına keçirirmişlər, dərinin çəkilməyilə saqqız kimi yapışmağı bir olurmuş - bir növ indiki üzgüçülük papaqları kimi. Başa zifi belə keçirirmişlər. Başına belə iş gətirilən adam ya işgəncələrə dözməyib ölür, ya da ömür-billah yaddaşını itirib manqurt olurmuş, yəni keçmişini xatırlaya bilməyən qula çevrilirmiş... "

Sarı-Özəyin qızmar günəşinin döyüdüyü çöldə ağır işgəncə çəkənlərin çoxu dözməyib ölürmüş. Beş-altı manqurtdan biri, ya ikisi sağ qalırmış. Onların ölümünə aclıq-susuzluq bais olmurmuş, manqurtun axırına gün altında quruduqca başını amansızcasına sıxan xam dəvə dərisinin verdiyi əzab çıxırmış: "Qızmar günəşin altında durmadan sıxılan zif qulun qırxıq başını dəmir məngənə kimi sıxırdı. Əzaba məruz qalan bu yazıqların tükləri ikinci gün uzanmağa başlayırdı. Asiyalıların düz və cod tükü bəzən dəvənin xam dərisinə bitir, çox vaxtsa yol tapa bilmir, qayıdıb təzədən manqurtun dərisinə girərək onun əzabını daha da artırırdı. Bu sonuncu işgəncə vaxtı məzlumların şüuru lap pozularmış. Juanjuanlar yalnız beşinci gün gəlib onları yoxlayarmışlar ki, görsünlər kim ölüb, kim qalıb. Əsirlərdən birini salamat tapanda hesab eləyirmişlər ki, məqsədlərinə çatıblar..."

Bundan sonra manqurt öz kimliyini, hansı nəsildən olduğunu, adını, uşaqlığını, atasını, anasını tamam unudurmuş, bir sözlə, özünü insan kimi dərk eləyə bilmirmiş. Qaçmaq, etiraz eləmək, üsyana qalxmaq onun ağlına belə gəlmirmiş, dilsiz-ağızsız heyvan kimi tamam müti olurmuş, qarnını doyurmaqdan başqa bir qayğısı qalmırmış: "Ən yaxın qohumları belə onu xilas eləmək, ya satın alıb qurtarmaq istəmirmişlər, çünki bu, adamın özünü yox, müqəvvasını qaytarmaq idi. Rəvayətə görə, Nayman-Ana kimi tanınan bircə nayman qadını öz oğlunun bu bədbəxtliyi ilə barışa bilməyib. Sarı-Özək əfsanəsində elə bu barədə danışılır. Qəbiristanlığın adı da bununla əlaqədardır - Ana-Beyit, yəni Ana məskəni".

Günlərin bir günündə Nayman-Ana soraqlayıb çöldə ağalarına çobanlıq eləyən oğlunu tapır. Onu görəndə oğlanın tükü də tərpənmir, nə anasını tanıyır, nə əsl adını xatırlayır. Bəlli həqiqətdir ki, insan təpədən-dırnağa yaddaşdan ibarətdir, öz keçmişinin məcmusudur, başqa sözlə, gen adlı yaddaş toxumlarından cücərmiş ağac, keçmişini gələcəyə daşıyan yaddaş arabasıdır - yaddaşı yoxdursa, insan cismi quru qəfəsdən başqa bir şey deyil:

"Onda Nayman-Ana qərara gəldi ki, kim olduğunu ona soruşmaqla yox, təlqinlə başa salsın.

- Sənin adın Jolamandır. Eşidirsən? Sən - Jolamansan. Atanın da adı Donenbaydır. Atan yadında deyil? Axı o, sənə hələ uşaqlıqdan ox atmağı öyrədərdi. Mən sənin ananam, sən də mənim oğlum. Sən naymanlar qəbiləsindənsən, başa düşdün? Sən naymansan.

Ananın dediklərinə o tam laqeydliklə qulaq asırdı, elə bil bu sözlərin ona dəxli yoxdu. Yəqin otluqda cırıldayan çəyirtkəyə də belə qulaq asardı".

Nayman-Ananın oğlunu tanıdığından duyuq düşən juanjuanlar manqurta ox-yay verib onu təlimatlandırırlar. Növbəti gəlişində oğul anasını ürəyindən oxlayır:

"Bu, ölümcül zərbə idi. Nayman-Ana dəvənin boynuna sinib ilişə-ilişə yıxıldı. Ancaq özündən əvvəl ananın başındakı yaylıq açılıb düşdü, havada quşa dönüb çığıra-çığıra uçub getdi: "Yadına sal kimlərdənsən! Adın nədir? Sənin atan Donenbaydır! Donenbay! Donenbay!.."

Deyilənə görə, o vaxtdan Sarı-Özəkdə Donenbay quşu uçur. Sarı-Özəkdə Nayman-Ananın basdırıldığı yerə o vaxtdan Ana-Beyit qəbiristanlığı deyirlər..."

Mesaj yetərincə aydındır: öz əslini, keçmişini oxlayanın gələcəyi olmaz, keçmişini dindirməyən, güldürməyən insanın gələcək üzünə gülməz. Bu, başqa məsələ ki, insan xoş gələcəyə keçmişinin səhvlərini arıtlaya-arıtlaya gedə bilər. Ana bətni insan adlı düşünən aparatı fəzaya uçuran kosmodromdur, sonrakı ömrü boyu süd içməsə belə insanı ana südü mayalandırır. İnsan ruhu da eləcə - onu ilk növbədə xalq dili, el yaddaşı pərvazlandırır, zəngin mənəviyyat hər şeydən əvvəl bu təməl üzərində formalaşır. Elə böyük sənətkar tapılarmı ki, folklora, el deyimlərinə kəc baxsın, kollektiv yaddaşdan bəhrələnməsin? Elə bir Azərbaycan şairi təsəvvürə gətirmək olarmı ki, bayatılardan, oxşamalardan, nağıllardan, dastanlardan qidalanmasın? Olarsa da, o şairin yazdığı nəyə yarayar?..

Yazılı ədəbiyyata gətirilmiş bu əfsanə son əlli-altmış ildə dünya nəsrinin ən böyük kəşflərindən biridir. Ötən əsrin altmışıncı illərində Latın Amerikası nəsrindən baş qaldıran mifə qayıdış dalğasının bütün dünyaya yayılmasında bizim Çingiz ağanın da danılmaz xidməti var.

davamı növbəti sayımızda



***F.Uğurlu***

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**



# Bir gündə beş ünvan...




## Ağdərə və Xocalının kəndlərinə köç yola salınıb

Tarixi torpaqlarımızda həyata keçirilən Böyük Qayıdışın hər bir addımı keçmiş məcburi köçkünlərimizin yurd həsrətinin sonlanması və sabaha ümidin bəslənməsi anlamına gəlir. Bu qayıdış sadəcə bir coğrafi hərəkət deyil, həm də mədəni və tarixi dirçəlişin başlanğıcıdır. Demək olar ki, hər gün baş tutan möhtəşəm köçün davamı olaraq Azərbaycan dövləti daha çox kəndi yenidən quraraq minlərlə insanın həyatını dəyişdirir.

Qarabağ bölgəsinin parlaq tarixini, mədəniyyətini özündə cəm edən ərazilərimizdən biri Ağdərə və Xocalıdır. Bu yerlər yalnız coğrafi mövqeyinə görə deyil, həm də xalqımızın ruhunun dərin izlərini daşıyan şəhərlərdir. Xocalı 1992-ci ildə Ermənistan silahlı qüvvələrinin həyata keçirdiyi dəhşətli soyqırımı ilə dünya tarixinin ən qanlı səhifələrindən birinə çevrildi. Ağdərə isə illərlə işğal altında qalmış, lakin Azərbaycan Ordusunun qəhrəmanlığı ilə öz azadlığını tapmış bir bölgədir.

### İnfrastruktur yenidən qurulur...

Böyük Qayıdış prosesi kompleks bir yanaşma tələb edir. Həm sosial, həm mədəni, həm də iqtisadi aspektlərdən yanaşdıqda, bu qayıdış bərpa olunmuş evlərdən, məktəblərdən, xəstəxanalardan və digər vacib sosial infrastrukturdan ibarət geniş bir layihədir. Ərazilərin təmizlənməsi, minalardan azad edilməsi və yeni binaların tikilməsi bu işin yalnız bir hissəsidir.

Xocalı və Ağdərə istiqamətindəki əsas yol infrastrukturunun təmiri və yenidən qurulması sürətlə həyata keçirilir. Bu, sakinlərin bölgəyə təhlükəsiz şəkildə qayıtmaları üçün vacibdir. Bölgənin infrastrukturunun bərpası üçün su və elektrik xəttləri də çəkilib. Bu, məskunlaşmanın və kənd təsərrüfatının inkişafı üçün vacib şərtdir.

Eyni zamanda, yollar və kommunikasiya xətləri genişləndirilib. Ağdərə və Xocalı şəhərlərində dövlət, həm də özəl sektorun iştirakı ilə yeni evlər, məktəblər, xəstəxanalar və digər sosial obyektlər tikilir.

Xocalı şəhərində bu bərpa işləri xüsusilə diqqət mərkəzindədir, çünki burada 1992-ci ildə baş verən Xocalı soyqırımı, bütün dünya tərəfindən tanınır. Şəhərin bərpası yalnız fiziki deyil, həm də emosional və tarixi əhəmiyyət kəsb edir.

Qeyd edək ki, Xocalı və Ağdərənin bərpası yalnız yaşayış sahələrinin tikintisi ilə məhdudlaşmır. Burada həmçinin iqtisadi inkişaf və kənd təsərrüfatının bərpası üzrə layihələr həyata keçirilir. Məsələn, istixanaların və kənd təsərrüfatı müəssisələrinin qurulması, əkin sahələrinin bərpası kimi işlər də böyük əhəmiyyət kəsb edir.

Həmçinin bölgənin təbii resurslarından istifadənin təşkili, turizmin inkişafı və sənayenin qurulması planlaşdırılır.

### Psixoloji dəstək də təşkil olunur

Azərbaycanın dövlət qurumları, eyni zamanda beynəlxalq təşkilatlar əhalinin geri qayıtmasına və bu bölgələrdə həyatın normallaşmasına yardım etmək üçün müxtəlif layihələr həyata keçirirlər. Bölgədə həyatın bərpası üçün psixoloji dəstək və sosial xidmətlər də mütəmadi olaraq təşkil olunur.

Xocalı və Ağdərə ərazilərindəki məktəblərin, kitabxanaların, mədəniyyət evlərinin bərpası və yenidən qurulması üzrə də işlər gedir. Bu, gənc nəslin təhsili və mədəniyyətinin inkişafı üçün vacibdir. Mədəni irsin qorunması və yenidən bərpası da bu layihələrin bir hissəsidir.



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”” istiqaməti üzrə hazırlanmışdır**

Dekabrın 22-də Ağdərə rayonunun Həsənriz, Vəngli və Kolatağ kəndlərinə, eləcə də Xocalı rayonunun Daşbulaq və Badara kəndlərinə köç karvanı yola salınıb. Köç edənlər respublikanın müxtəlif bölgələrində, əsasən yataqxanalarda, sanatoriyalarda və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

Bu mərhələdə Ağdərə rayonunun Həsənriz kəndinə 10 ailə - 54 nəfər, Vəngli kəndinə 6 ailə - 14 nəfər, Kolatağ kəndinə 7 ailə - 31 nəfər, Xocalı rayonunun Daşbulaq kəndinə 4 ailə - 11 nəfər, Badara kəndinə isə 15 ailə - 66 nəfər köçürülüb. Doğma yurdlarına qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident

### 42 ailə, 176 nəfər...

İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə təşəkkür edib, bu yolda canlarından keçən şəhidlərimizə Allahdan rəhmət diləyiblər.

***Sahib***




## Azercell-in dəstəyi ilə növbəti Uşaq Paralimpiya Oyunları keçirilib

Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin təşkilatçılığı, Gənclər və İdman Nazirliyinin dəstəyi və “Azercell Telekom” MMC-nin tərəfdaşlığı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində fəaliyyət göstərən Sosial Xidmətlər Agentliyinin Sumqayıt Paralimpiya İdman Kompleksində növbəti Uşaq Paralimpiya Oyunları baş tutub.

Bu il Paralimpiya Oyunları daha geniş miqyasda təşkil olunub. Oyunlarda 8 idman növü üzrə 130 uşaq paralimpiyaçı iştirak edib. Yarışlar paracüdo, parastolüstü tennis, parataekvondo, paraüzgüçülük, parapauerliftinq, parabadminton, parakamandan oxatma və boccia üzrə müxtəlif kateqoriyalarda keçirilib. Sonda qaliblər mükafatlandırılıb.

Uşaq Paralimpiya Oyunlarının əsas məqsədi ölkədə inklüziv idmanın inkişafı üçün münbit şərait yaratmaq, sağlamlıq imkanları məhdud uşaqların potensiallarını reallaşdırmaq və yeni paralimpiyaçı nəslinin yetişdirilməsinə töhfə verməkdir.

“Azercell Telekom” MMC 2014-cü ildən etibarən Uşaq Paralimpiya Hərəkatını dəstəkləyir. Şirkətin davamlı dəstəyi sayəsində Uşaq Paralimpiya Komitəsinin fəaliyyət dairəsi genişlənib və yüzlərlə uşaq idmanla məşğul olmaq imkanı əldə edib. Bu təşəbbüs ölkədə Paralimpiya Hərəkatının inkişafına töhfə verməklə yanaşı, uşaqların fiziki və psixoloji inkişafına, motivasiyasının artmasına və sosial inteqrasiyasının güclənməsinə müsbət təsir göstərib.




## “Nar” və “Netty” ilin ən yaxşı rəqəmsal təşəbbüslərini mükafatlandırdılar

Sərfəli xidmətləri ilə seçilən mobil operator “Nar” və Milli İnternet Mükafatı “Netty” 2025-ci ildə müxtəlif sahələr üzrə həyata keçirilən ən uğurlu rəqəmsal layihələri mükafatlandırdı.

Bu ilki “Netty” müsabiqəsində 9 nominasiya üzrə 200-dən çox layihə təqdim edilib. Elm, təhsil, mədəniyyət, inklüzivlik, media və s. kimi sahələri əhatə edən nominasiyalar üzrə ümumilikdə 22 qalib mükafata layiq görülüb. Müsabiqə qaydalarına uyğun olaraq, qaliblər onlayn səsvermə və ekspertlərin seçimləri əsasında müəyyənləşib.

“Nar”ın korporativ ünsiyyət və ictimaiyyətlə əlaqələr departamentinin direktoru Hökümə Kərimova “Netty” mükafatı ilə uzunmüddətli tərəfdaşlığın əsasında internetin Azərbaycan seqmentini istifadəçilər üçün daha faydalı məkana çevirmək niyyəti dayandığını bildirib: “Nar olaraq, məqsədimiz ölkədə rəqəmsal savadlılığı artırmaq və daha inklüziv cəmiyyətin yaranmasına dəstək olmaqdır. Biz rəqəmsal savadlılığı sadəcə texnologiya deyil, insanların həyatını asanlaşdıran, imkanlarını genişləndirən bir vasitə kimi görürük.”

Qeyd edək ki, “Netty” Milli İnternet Mükafatı 2004-cü ildə təsis edilib. 2018-ci ildən etibarən isə müsabiqə “Nar”ın dəstəyilə həyata keçirilir. Mobil operatorun həyata keçirdiyi layihələr haqqında ətraflı məlumatı nar.az saytından əldə edə bilərsiniz.

Hazırda 2,2 milyon abunəçiyə xidmət göstərən “Nar” son 6 il ərzində Müştəri Loyallığı İndeksi göstəricisinə əsasən Azərbaycanda lider mobil operatordur. Bu uğurun arxasında “Nar”ın ardıcıl şəkildə həyata keçirdiyi müştəriyönümlü strategiya dayanır. Mobil operator istifadəçilərinə sərfəli qiymət qarşılığında dayanıqlı və yüksəkkeyfiyyətli rabitə xidmətləri, müxtəlif internet paketləri və müasir eSim texnologiyası təqdim edir.




## Bakcell-in innovasiya tərəfdaşlığı ilə “Media Savadlılığı” Konfransı baş tutub

Bakcell-in innovasiya tərəfdaşlığı ilə təşkil olunan “Media Savadlılığı” Konfransı uğurla başa çatıb. Tədbir çərçivəsində media savadlılığının müasir dövrdə rolu, rəqəmsal mühitdə informasiya ekosistemi və süni intellektin bu sahəyə təsiri ətrafında müzakirələr aparılıb.

Konfrans media savadlılığı sahəsində peşəkar dialoqun gücləndirilməsi və mövzu üzrə davamlı əməkdaşlıq imkanlarının müzakirəsi baxımından əhəmiyyətli platforma kimi qiymətləndirilib.

Tədbir çərçivəsində təşkil olunan intellektual yarışın qalibləri Bakcell tərəfindən mükafatlandırılıb. Bu təşəbbüs Bakcell-in süni intellekt və innovasiyaya əsaslanan, analitik düşüncənin və maarifləndirici layihələrin təşviqinə verdiyi ardıcıl dəstəyin tərkib hissəsidir.

Bakcell innovasiya tərəfdaşı olaraq, konfransda innovasiya və media savadlılığı arasında əlaqələrin ön plana çıxarılmasına, süni intellekt və rəqəmsal trendlərin müzakirə gündəminə daxil edilməsinə dəstək göstərib.

**Bakcell haqqında**

Bakcell Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda şirkət üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Ölkə iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biri olan Bakcell süni intellekt əsaslı innovativ həllərlə Azərbaycanın dayanıqlı inkişafına töhfə verir.

Bakcell müxtəlif ölkələrdə telekommunikasiya, enerji, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən “NEQSOL Holding” beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4826
Sifariş: 2617
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova